YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
05 avqust
2026-cı il,
çərşənbə
№ 137 (7204)
Qiymәti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Sülhün müəllifi, quruculuğun memarı: Azərbaycanın postmüharibə strategiyası

## Yeni geosiyasi nizamda Bakının əməkdaşlıq və quruculuq modeli



Bax səh. 2

## Rəqəmsal idarəetmə dövrü...

### Şəffaflıq təmin olunur, inklüzivlik artır, vətəndaş məmnunluğu yüksəlir

Bax səh. 3

## Azərbaycan fəal iqlim diplomatiyası həyata keçirir

Hazırda dünyada iqlim çağırışlarının aktuallığı heç vaxt olmadığı qədər artıb. Sürətli sənayeləşmə dövründə iqlim dəyişmələrinin intensivliyi durmadan artır ki, bu da öz növbəsində fəsadlara yol açır.

Dünyanın ayrı-ayrı regionlarında insanlar quraqlıqdan, su çatışmazlığından əziyyət çəkirlər, digər bölgələr isə subasma təhlükəsi ilə üzləşiblər. Qlobal istiləşmənin nəticəsi olaraq buzlaqlar sürətlə əriyir, okeanların səviyyəsi yüksəlir. Bu reallıq fonunda dörd bir tərəfdən su ilə əhatə olunan kiçik ada dövlətləri "ölüm, ya qalım" dilemması ilə üzləşiblər. Eyni zamanda, texnogen hadisələr, meşə yanğınları ekosistemə ciddi ziyan vurmaqla yanaşı, insanların həyatı üçün də təhlükələri qaçılmaz edib. Bəs dünyanın iqlim təhdidləri ilə üz-üzə qaldığı bir məqamda çıxış yolu haradadır və ümumiyyətlə belə bir yol varmı?

Yaranmış vəziyyətdən çıxış yolu və yaxud ən azından getdikcə daha da yaxınlaşan təhlükəni uzaqlaşdırmaq imkanları, əlbəttə ki, var. Respublikamızın 2024-cü ilin noyabr ayında uğurla ev sahibliyi etdiyi COP29 təcrübəsi göstərdi ki, burada əsas məqam...

Bax səh. 4



## Süni intellekt uğrunda qlobal rəqabət

Bax səh. 7

## Korsika Assambleyasının təşəbbüsündə Paris izi...

Bax səh. 5

## Ermənistanda yeni hökumət formalaşdı...

Bax səh. 5

## Dünya bazarında taxılın qiyməti artacaq

Bax səh. 7

## İqnasio Kassis: İsveçrə Azərbaycanın konstruktiv rolunu yüksək qiymətləndirir

İsveçrənin Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassis AZƏRTAC-a eksklüziv müsahibə verib. Müsahibəni təqdim edirik.

**- İsveçrə Konfederasiyası Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndə onu tanıyan ilk ölkələrdən biridir. Gələn il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 35 illiyi tamam olacaq. Bakıya səfəriniz ikitərəfli əlaqələrin gələcək inkişafına hansı töhfəni verəcək?**

- İsveçrənin Azərbaycanın müstəqilliyini erkən tanıması ölkələrimiz arasında sıx və davamlı münasibətlərin təməlini qoyub.

Səfərim siyasi dialoqumuzu dərinləşdirmək, iqtisadi əməkdaşlığı gücləndirmək və ortaq maraq doğuran regional və beynəlxalq məsələləri müzakirə etmək üçün gözəl fürsətdir. Diplomatik münasibətlərin qurulmasının 35-ci ildönümünə yaxınlaşdıqca, artıq indiyə...

Bax səh. 4

## Rusiya-Ukrayna müharibəsi bitir?



Bax səh. 6

## ABŞ - İran danışıqları bərpa ediləcəkmi?



Bax səh. 6

# Sülhün müəllifi, quruculuğun memarı: Azərbaycanın postmüharibə strategiyası

## Yeni geosiyasi nizamda Bakının əməkdaşlıq və quruculuq modeli

### Prezident İlham Əliyevin bu ilin 6 ayında səsləndirdiyi prioritetlər...

2026-cı ilin ilk yarısında Cənubi Qafqazda müşahidə olunan siyasi proseslər bir daha göstərdi ki, regionun gələcək inkişafı qarşıdurma deyil, əməkdaşlıq modelindən keçir. Bu yeni reallığın əsas müəllifi isə məhz Azərbaycandır. Vətən müharibəsindən sonra yaranmış geosiyasi vəziyyəti düzgün qiymətləndirən rəsmi Bakı hərbi qələbəni siyasi və diplomatik üstünlüyə çevirməyi bacardı. Ən mühüm məqam isə ondan ibarətdir ki, Azərbaycan əldə etdiyi qələbədən revanşizm və ya təzyiq vasitəsi kimi istifadə etmədi. Əksinə, regionda davamlı sülhün, qarşılıqlı etimadın və iqtisadi inteqrasiyanın formalaşdırılmasını dövlət siyasətinin əsas prioriteti elan etdi.

Azərbaycanın irəli sürdüyü sülh gündəliyi təkcə ikitərəfli münasibətlərin normallaşdırılmasına xidmət etmir. Bu təşəbbüs bütövlükdə Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturasının qurulmasına, nəqliyyat-kommunikasiya xətlərinin açılmasına, iqtisadi əməkdaşlığın genişlənməsinə və regionun qlobal layihələr üçün etibarlı geostrateji məkana çevrilməsinə hesablanıb. Məhz buna görə də Azərbaycanın təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir və dəstəklənir.

Bu gün Bakı həm siyasi dialoqun, həm enerji və nəqliyyat əməkdaşlığının, həm də regional sabitliyin əsas mərkəzi kimi çıxış edir. Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət, beynəlxalq hüquqa söykənən mövqeyi və konstruktiv təşəbbüsləri Cənubi Qafqazda yeni münasibətlər sisteminin formalaşmasına ciddi təkan verib. Artıq regionun gələcəyi münaqişə ritorikası ilə deyil, əməkdaşlıq, qarşılıqlı fayda və ortaq inkişaf prinsipləri ilə müəyyənləşir. Bu isə Azərbaycanın postmüharibə dövründə nümayiş etdirdiyi məsuliyyətli dövlətçilik modelinin və uzaqgörən siyasi strategiyasının ən mühüm nəticələrindən biri kimi qiymətləndirilir.

### Azərbaycanın yaratdığı yeni reallıqlar regionda sülh üçün tarixi fürsətdir

Sülh prosesi ötən il baş tutan Vaşinqton görüşünün ardından daha dinamik status qazanıb. 2026-cı ilin ilk altı ayı bir daha göstərdi ki, Azərbaycan postmüharibə dövründə formalaşdırdığı yeni geosiyasi reallıqları qarşıdurmanın deyil, əməkdaşlığın əsasına çevirmək niyyətindədir. Rəsmi Bakı əldə etdiyi hərbi-siyasi üstünlükdən revanşizm siyasəti üçün istifadə etmədi, əksinə, regionda uzunmüddətli sülhün və iqtisadi inteqrasiyanın təmin olunmasına xidmət edən addımlar atdı. Vaşinqton görüşünün ardından irəliləyən dövrdə sülhün bütün ştrixləri açıq şəkildə ortaya qoyulur. Paralel olaraq bu yanaşma həm beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanır, həm də Cənubi Qafqazın gələcək inkişafı üçün yeni imkanlar yaradır. Prezident İlham Əliyev bu ilin mayında İrəvanda keçirilən “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxışı zamanı bildirdi ki, ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı: “Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub. Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib.

Sülh sahəsində digər nailiyyət bağlantılardır. “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu” Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər”.

Göründüyü kimi, bu addımlar, bu fürsətlər, Azərbaycanın Ermənistana münasibətdə nümayiş etdirdiyi konstruktiv mövqe gələcək sülh üçün olduqca möhkəm təməl yaradır. Enerji məhsullarının ixracına şərait yaradılması, eləcə də Azərbaycan ərazisindən Ermənistana yük daşımalarının həyata keçirilməsi üçün tranzit imkanlarının təqdim edilməsi göstərir ki, Bakı münasibətləri qarşılıqlı fayda və regional əməkdaşlıq prinsipləri üzərində qurmağa çalışır. Bu addımlar təkcə iqtisadi deyil, həm də siyasi etimadın formalaşmasına xidmət edən mühüm qərarlar kimi qiymətləndirilə bilər.

Azərbaycan dəfələrlə bəyan edib ki, Cənubi Qafqazın təhlükəsizliyi yalnız sülh, qarşılıqlı hörmət və beynəlxalq hüquqa əsaslanan münasibətlər sistemi ilə təmin oluna bilər. Bu baxımdan Ermənistan üçün yaranmış yeni reallıqları düzgün qiymətləndirmək və əməkdaşlıq imkanlarından faydalanmaq regionun gələcəyi baxımından mühüm əhəmiyyət daşıyır. Davamlı sülh yalnız imzalanacaq sənədlərlə deyil, həm də etimadı möhkəmləndirən praktik addımlarla mümkün ola bilər.

Beləliklə, son altı ay ərzində həyata keçirilən siyasi və diplomatik fəaliyyət bir daha sübut etdi ki, Azərbaycan regionda sabitliyin və inkişafın əsas təşəbbüskarlarından biridir. Bakının sülhə sadiqliyi, revanşizmdən uzaq siyasəti və əməkdaşlığa üstünlük verməsi həm regional təhlükəsizliyin möhkəmlənməsinə, həm də Cənubi Qafqazın yeni inkişaf mərhələsinə keçidinə mühüm töhfə verir. Bu siyasət Azərbaycanın sülh gündəliyinə sadiqliyinin və məsuliyyətli regional lider kimi mövqeyinin növbəti təsdiqidir. Amma Ermənistan da ona yaradılan bu şəraiti anlamalı, sülhün vacibliyini dərk etməlidir. Rəsmi İrəvan başa düşməlidir ki, ortada bir sülh varsa, onun müəllifi Azərbaycandır və sülh Azərbaycanın iradəsidir. Prezident İlham Əliyev bu ilin mayında Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşdə bildirib ki, “bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər”.



### Böyük Qayıdış və Qarabağın dirçəlişi: quruculuq siyasəti yeni inkişaf mərhələsində

İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi postmüharibə dövrünün ən əlamətdar hadisələrindəndir. Müharibəni şanlı Zəfərlə başa vuran, öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin edən qalib Azərbaycan quruculuq sahəsində də dünyaya nümunə göstərir. Bu proses son 6 ayda da uğurla davam etdirilir. Belə ki, “Böyük Qayıdış” I Dövlət Proqramı çərçivəsində son 6 ayda Qarabağ və Şərqi Zəngəzura köç karvanları sürətlə davam edib, minlərlə sakinin doğma yurduna qayıdışı və məşğulluğu təmin olunub. 2026-cı ilin ilk yarısı ərzində ötən bu dövrdə Xankəndi şəhəri, Xocavənd, Şuşa, Cəbrayıl, Xocalı (o cümlədən Badara kəndi) və Ağdərə rayonlarına növbəti köç karvanları yola salınıb. Beləliklə, 2026-cı ilin sonuna qədər ümumilikdə 140 min məcburi köçkünün (34 500 ailə) azad edilmiş ərazilərə qaytarılması hədəfi uğurla icra olunmaqdadır. Doğma yurdlarına qayıdan və iqtisadi fəal olan sakinlərdən 10 623 nəfərinin məşğulluğu təmin edilib. Sakinlərin 7 915 nəfəri birbaşa vakansiyalar üzrə işə yerləşdirilib, 1 828 nəfəri isə özünüməşğulluq proqramlarına cəlb olunub. İyun-iyul aylarında köçürülən əhalinin ehtiyaclarını öyrənmək üçün genişmiqyaslı sorğu layihəsi və xüsusi təlimlər keçirilib. Prezident İlham Əliyev bu ilin mayında Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşdə bildirib ki, biz qurub-yaradırıq: “İndi Cəbrayıl rayonunda bir neçə min insan yaşayır. İlk növbədə, Cəbrayıl şəhərində, - şəhərin mərkəzi də buradan o qədər də uzaq deyil, - ondan sonra Horovlu kəndində, Cocuq Mərcanlıda. Aprel döyüşlərindən sonra biz o kəndi yenidən qurduq. Ən çox insanlar burada yaşayacaq, hələlik 635 ev. Amma mənə verilən məlumata görə, köçmək, qayıtmaq istəyənlərin sayı daha çoxdur, təqribən 900-dən çoxdur. Ona görə kəndin ikinci mərhələsini də biz nəzərdə tuturuq.

Əlbəttə ki, yaşayışla əlaqədar, təhsillə bağlı məsələlər həll olunduqca, məşğulluq məsələləri də həll edilir. Burada da vətəndaşların məşğulluğunu təmin etmək üçün bir müvafiq göstərişlər verildi - həm mövcud olan dövlət sektorunda iş yerləri təbii ki, təqdim olunur, ondan sonra kənd təsərrüfatı ilə məşğul olmaq üçün, xüsusilə heyvandarlıq və bitkiçiliklə. Bunlardan başqa, Cəbrayıl rayonunda sənaye zonası - “Araz Vadisi” Sənaye Zonası fəaliyyət göstərir, orada da böyük sahəni biz nəzərdə tutmuşuq, 200 hektar sahə ayrılıb. Bu sənaye zonasında indi 20 rezident var, artıq istehsala da başlamışlar. O, daha da böyüyəcək, o da buradan çox da uzaqda deyil. Onu da bildirməliyəm ki, azad edilmiş ərazilərdə biz cəmi iki sənaye zonası nəzərdə tutmuşuq - biri Ağdamda, biri də Cəbrayılda. Ümumiyyətlə, Cəbrayılın gələcəkdə həm kənd təsərrüfatı, həm də nəqliyyat nöqteyi-nəzərindən ölkəmiz üçün böyük töhfəsi olacaq”.

Analoji fikirlər Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşdə də səsləndirildi - Prezident İlham Əliyev mayın 10-da baş tutan görüşdə bildirdi ki, bu, şəhərdə birinci yaşayış məhəlləsidir, hələ ikinci, üçüncü olacaq: “Bu layihələrin bəziləri təsdiqləndi, bəziləri indi təsdiqlənəcək, inşaat gedəcək. Zəngilanda ermənilər tərəfindən dağıdılmış dediyim o məscidin yanında gözəl, bəlkə də ölkəmizin ən gözəl məscidlərindən biri olan Zəngilan məscidini inşa etdik. Zəngilanda, əslində, birinci yaşayış məntəqəsi qurulmuşdur, Ağalı kəndində. Bu da demək olar ki, Zəngilana xüsusi münasibətin əlaməti idi. İndi onun yanında Məmmədbəyli kəndi salınıbdır. Şəhər genişlənəcək.

Zəngilanda hava limanı, konqres mərkəzi fəaliyyət göstərir. Yenə də azad edilmiş ərazilərdə birinci kənd təsərrüfatı müəssisəsi - “Dost Aqropark” məhz Zəngilanda yaradılmışdır və mənə verilən məlumata görə, artıq o, öz hədəfinə çatır. Çünki hədəfi 10 min baş cins mal-qara idi, bu hədəfə artıq yaxındır, 6 min hektara yaxın torpaqda da işlər gedir.

Zəngilan nəqliyyat dəhlizinin üzərində yerləşir. Biz Zəngilanı nəinki Azərbaycanın, bölgənin nəqliyyat mərkəzlərindən birinə çevirəcəyik. Dəmir yolu inşa edilir. Yaxın gələcəkdə - bəlkə də bir il, ilyarım bundan sonra Bakıdan Zəngilana dəmir yolu ilə gəlmək mümkün olacaq, nəcə ki, bu gün Ağdama dəmir yolu ilə gedirlər. Gələn il Xankəndiyə dəmir yolu ilə gedəcəklər. Bu dəmir yolu davam edəcək, Zəngəzur dəhlizi ilə Naxçıvanı birləşdirəcək. Faktiki olaraq buradan Naxçıvana 30 dəqiqəlik bir yol olacaq. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanı bu coğrafi bağlantı ilə ölkəmizin əsas hissəsi ilə birləşdirəcəyik”.

### Yaşıl enerji zonası: Qarabağ və Şərqi Zəngəzur dayanıqlı inkişafın yeni ünvanıdır

Dövlət başçısı işğaldan azad edilmiş ərazilərin bərpaolunan enerji potensialını da hər zaman ön plana çəkir. Bu istiqamətdə görülən işlər ötən 6 ayda da uğurla davam edib. Prezident İlham Əliyev Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşdə bildirdi ki, Cəbrayılda bizim ən böyük Günəş elektrik stansiyaları inşa edilir - üç stansiya, ümumi gücü 340 meqavat. Yəni bu gün 340 meqavatla bütün Qarabağı işıqlandırmaq olar. Amma nəzərə alsaq ki, biz artıq Zəngilanda, Laçında, Kəlbəcərdə 300 meqavatdan çox su elektrik stansiyaları işə salmışıq, təqribən bir-iki il ərzində bu bölgənin Günəş və su potensialı elektrik istehsalı üçün 700 meqavata yaxın olacaq. Yəni bu, ölkə üçün, məşğulluq üçün çox böyük xeyir gətirəcək”.

Eləcə də, Zəngilana köçən sakinlər qarşısındakı çıxışında da analoji mövzuya toxundu: “Zəngilan rayonunda görün, beş il ərzində 42 meqavatlıq su elektrik stansiyaları tikilmişdi. Sovet vaxtında bu yox idi. İndi bu, Zəngilanı belə müstəqil şəkildə tam enerji ilə təmin edə biləcək, lap burada 200 min əhali yaşasa belə. Amma biz bütövlükdə artıq sudan 300 meqavatdan çox enerji götürürük. Bir-iki il ərzində Günəşdən də götürəcəyik, ondan da çox”.

Bəli, bütün bu işlər planlı şəkildə davam edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə “Yaşıl enerji zonası” elan edilmiş azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri göz oxşayır. Bunun nəticəsidir ki, Qarabağ və Şərqi Zəngəzurun yaşıl texnologiyalar və enerji səmərəliliyi prinsipləri əsasında inkişafı artıq nümunəvi modelə çevrilib və keçirilən monitorinqlərin müsbət dinamikası da bunu bir daha sübut edir. Ölkə Prezidentinin Cəbrayıla səfəri çərçivəsində rayonun Şükürbəyli kəndinin, eləcə də Soltanlı kəndində “Azərenerji” ASC-nin 330 kilovoltluq “Şəfəq” yarımstansiyasının və Laçında su elektrik stansiyalarının açılış mərasimləri keçirilib. Yaşıl enerji texnologiyalarının tətbiqi çərçivəsində Kəlbəcər və Laçın rayonlarında özəl sektor hesabına 4 kiçik su elektrik stansiyasının inşasının, eləcə də Kəlbəcərdə külək elektrik stansiyasının tikintisinə hazırlıq məqsədilə ölçmə-müşahidə işləri aparılıb. azad edilmiş ərazilərdə elektrik enerjisinə olan tələbat nəinki tamamilə yaşıl enerji hesabına ödənilir, hətta yaranan əlavə güclər ölkənin ümumi enerji şəbəkəsinə də ötürülür. Azad edilmiş ərazilərdə indiyədək 2 min 500-dən çox fərdi yaşayış evində, ictimai və sosial binalarda ümumi gücü 8 min kilovatdan çox olan günəş panelləri və 8 mindən artıq LED əsaslı işıqlandırma qurğusu quraşdırılıb. Həmin qurğuların 43 faizi, yəni təqribən, 3 min 500-ü günəş enerjisi ilə işləyən hibrid sistemlərdir.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpaolunan enerji mənbələri ilə zənginliyi artıq beynəlxalq səviyyədə də öz təsdiqini tapıb. Aparılmış son qiymətləndirmələrə əsasən, burada, təxminən, 7 min 200 meqavat külək, 2 min meqavat günəş və 500 meqavata yaxın hidroenerji potensialı mövcuddur. Son illər işğaldan azad olunmuş ərazilərin yaşıl enerji potensialının hərəkətə gətirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının “yaşıl enerji zonası”na çevrilməsi barədə tapşırıqlarına uyğun olaraq, “AzərEnerji” ASC tərəfindən regionda su elektrik stansiyalarının tikintisi istiqamətində işlər ardıcıllıqla davam etdirilir. Ötən müddətdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 40-a yaxın kiçik su elektrik stansiyası istismara verilib. Həmin stansiyaların ümumi gücü, təxminən, 307 meqavat təşkil edir. Eyni zamanda, bölgədə 6 yeni hidroelektrik stansiyanın tikintisi planlaşdırılır. Bu il iyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Laçında Hoçaz çayının üzərində yerləşən 14,7 meqavatlıq “Ağbulaq-1”, 14,25 meqavatlıq “Ağbulaq-2” və 4 meqavatlıq “Şeylanlı” su elektrik stansiyalarının onlayn formatda açılış mərasimi keçirilib. Ümumilikdə isə, Kiçik Qafqazın ölkə daxilində Tərtərçaydan sonra ikinci ən böyük çayı hesab olunan Həkəriçay və onun qolları olan Hoçaz, Şəlvə, Zabux çayları üzərində indiyədək ümumi gücü 72,6 meqavat olan 11 su elektrik stansiyası tikilib. Bunun da nəticəsində Laçın rayonunun 8-10 meqavatlıq elektrik enerjisi tələbatı tam olaraq yaşıl enerji hesabına qarşılanır.

### Azərbaycanın müəyyən etdiyi inkişaf kursu regionun gələcəyini formalaşdırır

2026-cı ilin ilk altı ayında həyata keçirilən addımlar göstərir ki, Azərbaycan postmüharibə dövrünün əsas hədəflərini ardıcıl şəkildə həyata keçirməyə davam edir. Bir tərəfdən sülh gündəliyinin irəli aparılması, regional əməkdaşlıq imkanlarının genişləndirilməsi və qarşılıqlı etimad mühitinin formalaşdırılması istiqamətində atılan addımlar, digər tərəfdən isə işğaldan azad edilmiş ərazilərdə aparılan misilsiz bərpa-quruculuq işləri ölkənin uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir. Böyük Qayıdış proqramının uğurla icrası, müasir yaşayış məntəqələrinin salınması, nəqliyyat və enerji infrastrukturunun yaradılması, yaşıl enerji layihələrinin genişləndirilməsi Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialını sürətlə artırır. Bütün bunlar Azərbaycanın yalnız hərbi-siyasi qələbə qazanan dövlət deyil, həm də sülhü, inkişafı və dayanıqlı əməkdaşlığı təşviq edən məsuliyyətli regional aktor olduğunu nümayiş etdirir. Formalaşan yeni reallıqlar göstərir ki, Cənubi Qafqazın gələcək sabitliyi qarşıdurmadan deyil, qarşılıqlı fayda, iqtisadi inteqrasiya və konstruktiv əməkdaşlıqdan keçir. Azərbaycanın həyata keçirdiyi siyasət isə bu yeni inkişaf modelinin əsas istiqamətlərini müəyyənləşdirən aparıcı amil kimi çıxış edir.

*Pərviz SADAYOĞLU*

# Rəqəmsal idarəetmə dövrü...

## Şəffaflıq təmin olunur, inklüzivlik artır, vətəndaş məmnunluğu yüksəlir

Hazırda Dördüncü sənaye inqilabı dövrünü yaşayırıq və dünyada hər sahədə innovativ yeniliklərin tətbiqi, rəqəmsallaşma əsas trendlərdən birinə çevrilib. Hər zaman öz siyasətini qlobal çağırışları nəzərə almaqla quran Azərbaycanın gündəliyində də idarəetmənin səmərəliliyini və keyfiyyət göstəricilərini daha yüksək səviyyəyə qaldırmaq, şəffaflığı artırmaq, məmur - vətəndaş təmaslarını minimuma endirməklə bəzi neqativ hallara son qoymaq məqsədilə rəqəmsallaşma ilə bağlı mühüm hədəflər müəyyənləşdirilib. Prezident İlham Əliyevin cari ilin əvvəlində təsdiqlədiyi "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nda, eləcə də iyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında ölkə həyatının müxtəlif sahələrində rəqəmsallaşmanın sürətləndirilməsi ilə bağlı mühüm hədəflər müəyyənləşdirilib.

Beləliklə də, respublikamızda hələ bir neçə il bundan əvvəl başlayan proses dövlətin qətiyyətli siyasi iradəsi sayəsində yeni mərhələyə daxil olub. Təqdim edilən statistikadan görünür ki, ayrı-ayrı mərkəzi və yerli icra strukturları yaradılan zəruri infrastrukturun, hüquqi bazanın möhkəmləndirilməsinin nəticəsi olaraq idarəetmənin rəqəmsallaşdırılmasında yaxşı nəticələr qazanıblar. Bu isə öz növbəsində idarəetmənin çevikliyini yüksəltməklə vətəndaş məmnunluğunun artmasına müsbət təsir göstərir.

### "mygov"a inam artır

Azərbaycanda rəsmi rəqəmsal dövlət platforması olan "mygov" hökumətlə vətəndaş arasında körpü yaratmaqla bütün vacib sənədlərə və dövlət xidmətlərinə asan çıxışı təmin edir. Artıq fiziki müraciətlər, uzun növbələr və kağızla sənəd dövriyyəsi geridə qalır - bütün bunlar "mygov"la onlayn, rahat və sürətli şəkildə həll olunur. Platformanın əsas missiyası vətəndaşların rəqəmsal hökumətə çıxışı prosesini sadələşdirərək onların həyatını optimallaşdırmaq, bürokratik əngəlləri azaltmaq və dövlət xidmətlərinə olan etimadı gücləndirməkdən ibarətdir. Bu platforma vətəndaşlara

- Həyat hadisələrini (doğum, nikah, ölüm və s.) rəqəmsal şəkildə idarə etməyə,
- Rəqəmsal sənəd və məlumatları rahatlıqla əldə etməyə,
- Bir kliklə olduğu yeri tərk etmədən dövlət xidmətlərindən yararlanmağa imkan yaradır.

Beləliklə də, ölkəmizdə inklüziv cəmiyyət quruculuğuna doğru inamlı addımlar atılır. Hökumət xidmətlərinin əhalinin bütün təbəqələri üçün bərabər səviyyədə rahat əlçatanlığı təmin edilir, əlavə vaxt itkisinin qarşısı alınır. Əsas məqamlardan biri də ondan ibarətdir ki, rəqəmsal hökumət xidmətləri müasir texnologiyalara uyğun olaraq daim yenilənir və inkişaf etdirilir. Bir qədər bundan əvvəl İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən "mygov" platformasının inkişafında yeni yanaşmaya start verilib. Bu çərçivədə vətəndaşlar artıq yalnız xidmət istifadəçisi deyil, xidmətlərin birgə dizaynında iştirak edən tərəf kimi çıxış edirlər. Təşəbbüs "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"na uyğun olaraq həyata keçirilir və dövlət xidmətlərinin təqdimatından vətəndaş təcrübəsinin dizaynına keçidi hədəfləyir. Əsas məqsəd xidmətlərin real istifadəçi ehtiyaclarına əsaslanaraq davamlı şəkildə təkmilləşdirilməsidir. Bu təşəbbüs vətəndaşların rəqəmsal hökumət proseslərində iştirakını genişləndirir və dövlət xidmətlərinin daha çevik, əlçatan və istifadəçi yönümlü inkişafına xidmət edir.

Yeni inteqrasiyalarla "mygov"un əhatə dairəsi sürətlə genişlənir. Eyni zamanda, rəqəmsal dövlət platformasına müraciət edənlərin sayı hər ötən gün artmaqdadır. Rəqəmsal İnkişaf Şurasının ilk iclasında Birinci vitse-prezidentə məruzə edilib ki, artıq ölkəmizdə "mygov" platformasından istifadəçi sayı 3,5 milyon nəfərə çatıb. Xidmət dairəsinin genişlənməsi və istifadəçi sayının artması isə rəqəmsal dövlət platformasına inamın əyani göstəricisidir.




### Vətəndaşlar artıq "mygov" üzərindən vəkil və bank etibarnaməsi verə biləcəklər

Vətəndaşlara təqdim olunan rəqəmsal xidmətlərin vahid platforma üzərindən əlçatanlığının təmin edilməsi məqsədilə "mygov" platformasında daha iki yeni xidmət istifadəyə verilib. Ədliyyə Nazirliyinin təqdim etdiyi "Vəkilə verilən etibarnamənin təsdiq edilməsi" və "Bank xidmətlərindən istifadə edilməsi ilə bağlı etibarnamənin verilməsi" xidmətləri "mygov" platformasına inteqrasiya olunub. Xidmətlər həm my.gov.az portalı, həm də "mygov" mobil tətbiqi üzərindən vətəndaşlar üçün əlçatandır.

"Bank xidmətlərindən istifadə edilməsi ilə bağlı etibarnamənin verilməsi" xidməti vasitəsilə vətəndaş digər şəxsə öz adından bank əməliyyatlarını (hesab açmaq, hesabdakı vəsaitləri nağdlaşdırmaq, köçürmələr etmək və s.) həyata keçirmək səlahiyyəti verə bilər. "Vəkilə verilən etibarnamənin təsdiq edilməsi" xidməti isə bir şəxsin vəkilə onun adından hüquqi məsələlərin həlli, məhkəmədə təmsilçilik və digər hüquqi əməliyyatların aparılması üçün səlahiyyət verdiyini təsdiq edən sənəddir.

Xidmətlərdən istifadə üçün vətəndaş "mygov" tətbiqində "Xidmətlər" bölməsinə daxil olur. "Bank etibarnaməsi" üçün "Məşğulluq", "Vəkil etibarnaməsi" üçün isə "Şəxsi" kateqoriyasından müvafiq xidmət seçilir. Daha sonra tələb olunan məlumatlar daxil edilərək etibarnamə müvafiq şəxsə təqdim edilir.

İstifadəçilər müraciətin statusunu "Müraciət tarixçəsi" bölməsindən izləyə və sənəd hazır olduqdan sonra ona çıxış əldə edə bilirlər.

Qeyd edək ki, sözügedən xidmətlərlə yanaşı, bundan əvvəl də müxtəlif həyat hadisələri əsasında Ədliyyə Nazirliyinin 5 xidməti, notariat fəaliyyəti ilə bağlı 6 xidməti, eləcə də tərcümə və fiziki şəxslərə aid icra işləri barədə məlumatların təqdim olunması xidmətləri "mygov" platformasına inteqrasiya olunub.

### Dövlət müəssisələrinin rəqəmsal monitorinqi üzrə hesabatlılıq genişlənir

2026-cı ilin I yarısında dövlət maliyyəsinin idarə edilməsində şəffaflığın artırılması və rəqəmsallaşmanın genişləndirilməsi, o cümlədən "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (RDMİS) ayrı-ayrı altsistemlərinin tətbiqi və funksionallığının genişləndirilməsi istiqamətində görülən işlər davam etdirilib. RDMİS-nin "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi" altsistemində cari ilin I yarısında 1 034 müəssisə qeydiyyatdan keçib, altsistem vasitəsilə 1 315 aylıq və 7 244 rüblük hesabat təqdim olunub. Hesabat dövründə 466 müəssisə 2026-cı il üçün təsdiqlənmiş büdcə hesabatı, 532 müəssisə 2027-ci il üçün dividend proqnozu hesabatı, eləcə də 654 müəssisə növbəti il üçün büdcə proqnozu hesabatını təqdim edib.

Qeyd edək ki, "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi" altsistemi Azərbaycan Prezidentinin 26 yanvar 2026-cı il tarixli Fərmanı ilə Əsasnaməsi təsdiq edilmiş "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin altsistemi kimi fəaliyyət göstərir. Bu altsistem dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin rüblük əsaslarla monitorinqini və icra göstəricilərinin təhlilini, həmçinin bu məqsədlə müəyyən edilmiş büdcə və maliyyə göstəriciləri barədə məlumatların əldə olunmasını təmin edir.

### "ADY Mobile" tətbiqinə 500 min yüklənmə

Azərbaycan Dəmir Yollarının "ADY Mobile" mobil tətbiqi 500 min yüklənmə sayı ilə hər gün sərnişinlərin səyahətini daha rahat, sürətli və əlçatan edir. Tətbiq vasitəsilə sərnişinlər qatarların hərəkət cədvəli ilə tanış ola, beynəlxalq, ölkədaxili və Abşeron dairəvi dəmir yolu marşrutu üzrə biletlərini asanlıqla əldə edə, eyni anda bir neçə nəfər üçün bilet ala və biletləri PDF formatında ailə üzvləri və yaxınları ilə paylaşa bilirlər.

Son illərdə "ADY Mobile" üzərindən ölkədaxili istiqamətlər üzrə bilet satışlarında da əhəmiyyətli artım qeydə alınıb. Belə ki, 2023-cü ilin noyabr ayında tətbiq vasitəsilə əldə olunan biletlər ümumi satışın 11 faizini təşkil etdiyi halda, 2026-cı ilin iyun ayında bu göstərici 50 faizə yüksəlib.

Tətbiqdə təqdim olunan "SİMA Pay" - üz tanıma ilə ödəniş funksiyasını isə artıq 10 minədək istifadəçi aktivləşdirərək stansiyalara daha sürətli və rahat keçid imkanından yararlanır.

"ADY Mobile" istifadəçiləri səfərlə bağlı vacib bildirişləri və yenilikləri operativ şəkildə əldə edir, həmçinin "SİMA Pay", bank kartı, barkod və elektron kart kimi müxtəlif ödəniş üsullarından istifadə edə bilirlər.

Qarşıdakı dövrdə də "ADY Mobile"ın imkanları yeni funksiyalar və daha rahat xidmətlərlə genişləndiriləcək.

### Fermerlər, istehsalçılar və satıcılar "tedaruk.az" portalında bir arada

Azərbaycanda etibarlı və asan çıxışa malik tədarük-təchizat zənciri qurulur. Belə ki, fermerlər, istehsalçılar və satıcılar "tədarük.az" portalında bir araya gəlmək imkanı qazanıblar. Avqust ayının 1-dən sentyabrın 1-dək ərzaq və kənd təsərrüfatı məhsullarını satmaq niyyətində olan fermerlər, istehsalçılar və satıcılar tedaruk.az saytına daxil olaraq dövlət satınalan təşkilatların 2027-cı il üzrə tələbatlarına uyğun olaraq ərzaq məhsullarına dair təkliflərini yerləşdirə biləcəklər.

Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib. Bildirilib ki, elektron portal vasitəsilə ərzaq məhsullarını satmaqda maraqlı olan istehsalçılar, fermerlər və satıcılar sistemə "ASAN LOGIN" üzərindən "ASAN İmza" vasitəsilə daxil ola biləcəklər.

Qeyd edək ki, "ASAN İmza" yalnız VÖEN hesabına bağlı olduğu halda keçərlidir.

Bundan əlavə istehsalçılar, fermerlər və satıcılar növbəti il üçün "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən portala daxil edilən elana uyğun olaraq məhsullara dair təkliflərini cari ilin 1 avqust - 1 sentyabr tarixləri arasında sistemə yükləyə biləcəklər. Qeyd edilən tarixədək təkliflərini elektron portala daxil etməyən istehsalçılar və ya satıcılar satınalmada iştiraka buraxılmayacaqlar. Təkliflərin yerləşdirilməsi tamamilə ödənişsizdir.

Qeyd edək ki, "tedaruk.az" elektron portalı dövlət büdcəsinin vəsaitləri hesabına ərzaq məhsullarını satın alan dövlət müəssisə və təşkilatları (idarələri) ilə həmin məhsulları satmaq istəyən istehsalçı və satıcıları birləşdirən platformadır. Elektron portal ərzaq məhsullarının dövlət sifarişi ilə mərkəzləşdirilmiş qaydada satın alınmasını təkmilləşdirir, tədarük və təchizat prosesinin operativ həllini təmin edir.

**Ölkəmizdə inklüziv cəmiyyət quruculuğuna doğru inamlı addımlar atılır. Hökumət xidmətlərinin əhalinin bütün təbəqələri üçün bərabər səviyyədə rahat əlçatanlığı təmin edilir, əlavə vaxt itkisinin qarşısı alınır. Əsas məqamlardan biri də ondan ibarətdir ki, rəqəmsal hökumət xidmətləri müasir texnologiyalara uyğun olaraq daim yenilənir və inkişaf etdirilir**

**"Dövlət müəssisələrinin rəqəmsal monitorinqi" altsistemi Azərbaycan Prezidentinin 26 yanvar 2026-cı il tarixli Fərmanı ilə Əsasnaməsi təsdiq edilmiş "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin altsistemi kimi fəaliyyət göstərir. Bu altsistem dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin rüblük əsaslarla monitorinqini və icra göstəricilərinin təhlilini, həmçinin bu məqsədlə müəyyən edilmiş büdcə və maliyyə göstəriciləri barədə məlumatların əldə olunmasını təmin edir**

### Nağdsız ödənişlərdə yüksək artım dinamikası

Respublikamızda nağdsız ödənişlərdə yüksək artım dinamikası müşahidə edilir. İlin əvvəlindən iyunun sonuna kimi ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 14,5 faiz artıb.

Mərkəzi Bankdan bildirilib ki, cari ilin iyun ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 9 milyard 902 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 8 milyard 575 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 1 milyard 325 milyon manatı POS-terminallar, 2,5 milyon manatı isə özünə xidmət terminalları və bankomatların vasitəsilə gerçəkləşdirilib.

İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 69,8 faizini təşkil edib.

Banklar və "Azərpoçt" MMC ödəniş xidməti şəbəkələri üzrə dinamik artım müşahidə olunur. Belə ki, keçən ilin iyun ayının sonu ilə müqayisədə bankomatların sayı 4,4 faiz, POS-terminalların sayı 16,9 faiz artıb.

### Tranzit daşımalarda e-TIR sisteminin tətbiqinə başlanıb

Azərbaycan, Türkmənistan və Özbəkistan arasındakı tranzit daşımalarda e-TIR sisteminin tətbiqinə başlanıb. Azərbaycandan şərqə doğru hərəkət edən televizor və musiqi avadanlıqları yükü Xəzər dənizi üzərindən "Türkmənbaşı" limanına çatdırılıb, daha sonra isə "Farap" sərhəd-keçid məntəqəsi vasitəsilə Özbəkistana daxil olub. Bu əməliyyat vahid prosedur çərçivəsində Azərbaycan, Türkmənistan və Özbəkistanı birləşdirən ilk e-TIR daşınmasıdır.

Həmçinin qərb istiqamətində isə Türkmənistandan pambıq, şirə, su və qənnadı məmulatları daşıyan dörd yük avtomobili "Türkmənbaşı" limanında gömrük rəsmiləşdirilməsini tamamladıqdan sonra bərə ilə Xəzər dənizini keçərək Beynəlxalq Dəniz Ticarət Limanına çatıb.

Sistemin tətbiq edilməsində Azərbaycan, Türkmənistan və Özbəkistanın gömrük orqanları, BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE), Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) və onun üzv təşkilatları ABADA, THADA və AIRCUZ arasındakı əməkdaşlıq mühüm rol oynayıb.

Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) dəstəyi ilə həyata keçirilən layihə gömrük məlumatlarının real vaxt rejimində elektron qaydada mübadiləsinə, kağız sənədləşmənin həcminin azalmasına, risklərin minimuma endirilməsinə, gömrük prosedurlarının sürətləndirilməsinə, xərclərin azaldılmasına, əməliyyatların və ticarətin sadələşdirilməsinə imkanlar yaradır.

Eyni zamanda e-TIR sisteminin tətbiqi Orta Dəhlizin cəlbediciliyinin yüksəlməsi, bu marşrut vasitəsilə yükdaşımaların həcminin artması baxımından da əhəmiyyət daşıyır.

***Mübariz ABDULLAYEV***

# Azərbaycan fəal iqlim diplomatiyası həyata keçirir

Hazırda dünyada iqlim çağırışlarının aktuallığı heç vaxt olmadığı qədər artıb. Sürətli sənayeləşmə dövründə iqlim dəyişmələrinin intensivliyi durmadan artır ki, bu da öz növbəsində fəsadlara yol açır.

Dünyanın ayrı-ayrı regionlarında insanlar quraqlıqdan, su çatışmazlığından əziyyət çəkirlər, digər bölgələr isə subasma təhlükəsi ilə üzləşiblər. Qlobal istiləşmənin nəticəsi olaraq buzlaqlar sürətlə əriyir, okeanların səviyyəsi yüksəlir. Bu reallıq fonunda dörd bir tərəfdən su ilə əhatə olunan kiçik ada dövlətləri "ölüm, ya qalım" dilemması ilə üzləşiblər. Eyni zamanda, texnogen hadisələr, meşə yanğınları ekosistemə ciddi ziyan vurmaqla yanaşı, insanların həyatı üçün də təhlükələri qaçılmaz edib. Bəs dünyanın iqlim təhdidləri ilə üz-üzə qaldığı bir məqamda çıxış yolu haradadır və ümumiyyətlə belə bir yol varmı?

## Azərbaycanın fərqli nümunəsi - ölkənin COP29-dan sonra da iqlim diplomatiyasına dönməz sadiqliyi

Yaranmış vəziyyətdən çıxış yolu və yaxud ən azından getdikcə daha da yaxınlaşan təhlükəni uzaqlaşdırmaq imkanları, əlbəttə ki, var. Respublikamızın 2024-cü ilin noyabr ayında uğurla ev sahibliyi etdiyi COP29 təcrübəsi göstərdi ki, burada əsas məqam ölkələrin, xüsusilə də intensiv sənaye fəaliyyətləri ilə iqlim dəyişmələrinə daha çox dərəcədə təsir göstərən inkişaf etmiş ölkələrin məsuliyyəti və həmrəyliyi əsas məqamlardan biridir. Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bu günlərdə KİV-ə müsahibəsində ölkəmizin fəal iqlim diplomatiyası həyata keçirdiyinə diqqət çəkib. Respublikamız COP29-a ev sahibliyi etməsindən sonra da iqlim diplomatiyasına dönməz sadiqlik nümayiş etdirməklə dünyaya fərqli nümunə təqdim edir. Ölkələrin iqlim siyasəti heç bir halda kampaniya xarakteri daşımamalıdır, bu məsələ daim milli gündəlikdə əsas yerlərdən birini tutmalıdır. Azərbaycan enerji resursları ilə zəngin olan bir dövlətdir. Burada uzun illər ərzində qazıntı yanacağı istehsal olunub. Lakin bu, bizim günahımız və yaxud seçimimiz deyil. Əsas məqam yanaşmadadır. Azərbaycan resurslara malik ölkə olsa da, hər zaman qlobal iqlim çağırışlarına böyük həssaslıq göstərib, həmrəylik təşəbbüsləri ilə çıxış edib və hazırda da enerji transformasiyasını uğurla həyata keçirir. Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulub və Konvensiyanın Kioto Protokolunu 2000-ci ildə təsdiqləyib. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilmiş Doha əlavəsi 14 aprel 2015-ci ildə Milli Məclis tərəfindən ratifikasiya edilib və ölkə Prezidenti tərəfindən təsdiqlənib. Digər bir mühüm beynəlxalq sənəd olan Paris Sazişi isə 2016-cı il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunub. Respublikamız BMT-nin çağırışına qoşularaq neft sənayesində "sıfır emissiya" hədəfi müəyyənləşdirib. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını təmin etmək niyyətindədir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Bundan başqa, Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Bu siyasətə sadiqliyin təzahürü olaraq Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu missiyaya verilən dəyəri təsdiqləyir. Bu təşəbbüs sadəcə rəmzi məna daşımır, həmçinin Azərbaycanın müsbət ekoloji dəyişmələr yaratmaq məqsədi daşıyan ölkələr üçün nümunə olmaq istəyidir, eyni zamanda, gələcək nəsillər üçün daha yaşıl və sağlam gələcəyin qurulması istiqamətində öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addımdır.

Dövlətlərin iqlim çağırışlarına yanaşması müqayisələrdə daha qabarıq şəkildə nəzərə çarpır. Yalçın Rəfiyev müsahibəsində COP tarixinə qısa ekskurs edib. XİN rəsmisinin bildirdiyi kimi, bir çox dövlət COP-a ev sahibliyi etdikdən sonra öz missiyasını başa çatmış hesab edir, iqlim diplomatiyasında rolunu bununla məhdudlaşdırır. Ancaq Azərbaycan ümumilikdə beynəlxalq münasibətlərə xüsusi diqqət yetirən və çoxtərəfliliyə sadiq dövlət olaraq, öz fəaliyyətini yalnız COP29-u təşkil etməklə bitmiş saymadı, bundan sonra da fəallığımızı davam etdiririk. COP29-da qəbul olunan bir çox qərarların qalıcı miras olması bir tərəfə, eyni zamanda biz institutsional miraslar da yaratmışıq. Məsələn, Şamaxı Toplantısı bizə imkan verir ki, qlobal iqlim diplomatiyasında biz fəal dövlət olaraq qalmaqda davam edək. Yəni Azərbaycanın rolunu ev sahibi dövlətdən iqlim diplomatiyası sahəsində lider dövlətlərdən birinə transformasiya kimi xarakterizə etmək olar.




## Respublikamızın regional liderliyi

Son illərdə Azərbaycan beynəlxalq dialoq mərkəzinə çevrilib. Bunu ölkəmizdə bir-birinin ardınca mötəbər qlobal forumların, zirvə görüşlərinin keçirilməsi əyani şəkildə təsdiqləyir. Deyə bilərik ki, dünya gündəliyinin aktual məsələləri Azərbaycanda müzakirə olunur və konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilir. O cümlədən məsuliyyətli dövlət olan Azərbaycan COP29-a uğurlu ev sahibliyi etmək üçün çox məsuliyyətli hazırlıqlar gördü ki, bu da ölkəmizin yaşıl gündəliyə münasibətinin ifadəsidir. Belə bir mötəbər tədbirə ev sahibliyi hüququnun Azərbaycana verilməsi beynəlxalq birliyin ölkəmizə və onun Liderinə artan inamının təcəssümü idi. Eyni zamanda yüksək səviyyədə baş tutan tədbir respublikamızın regional liderliyini bir daha nümayiş etdirdi. Hazırda Azərbaycan dünyada orta güc dövləti kimi qəbul edilir ki, bu da respublikamızın reallıqları ilə bağlıdır. "Bununla əlaqədar cənab Prezident Şuşa Qlobal Media Forumunda, eyni zamanda müxtəlif tədbirlərdə də qeyd edib ki, Azərbaycan artıq orta gücə çevrilib. Biz inkişaf etməkdə olan ölkə statusunda əvvəl yardım qəbul edən dövlət idiksə, indi artıq donor dövlətə çevrilmişik. Azərbaycan bu gün 140-dan çox ölkəyə beynəlxalq yardım həyata keçirib. Azərbaycan siyasi baxımdan güclənib, regionun ən nüfuzlu ölkələrindən biridir. Azərbaycan lideri beynəlxalq miqyasda qlobal liderlərdən biri hesab olunur. Demək olar ki, bütün ciddi çoxtərəfli məsələlərin müzakirəsinə Azərbaycan dəvət edilir. Mən deyərdim ki, Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərin töhfəsi bir yana, ancaq Azərbaycanın dünya miqyasında baş verən proseslərə, hadisələrə nümayiş etdirdiyi ədalətli mövqe onu bu qədər nüfuzlu dövlətə çevirdi. Azərbaycan hansısa məsələlərdə sırf birtərəfli mövqedən çıxış etmir, yalnız öz marağını, dostlarının marağını nəzərə almır. Azərbaycan ancaq beynəlxalq hüquq, beynəlxalq nizam, bütün dünyanın bölüşdüyü dəyərlərə üstünlük verən dövlət kimi nüfuz qazanıb", - deyə XİN rəsmisi vurğulayıb.

Yalçın Rəfiyev bildirib ki, Mərkəzi Asiya, Cənubi Qafqaz regionlarını ümumilikdə götürsək, regionda ilk dəfə COP Azərbaycanda keçirilib. Bu, əslində bir neçə xüsusda əlamətdardır. Birincisi, COP29-a qədər regionda heç bir dövlət COP proseslərində fəallığı ilə seçilmirdi. Ancaq regionun iqlim, ətraf mühitlə bağlı problemləri kifayət qədərdir: Xəzər dənizinin səviyyəsinin alçalması, su problemləri, quraqlıq və s. Artıq bu problemlər özünü bariz şəkildə göstərir. Bunlar qlobal iqlim fəaliyyətində aktiv iştirakı zəruri edir. Azərbaycan ilk olaraq, COP29-a ev sahibliyi edərək burada xüsusi fəallığı ilə seçilən dövlət oldu. Eyni zamanda Cənubi Qafqazda Ermənistanda Azərbaycan nümunəsini təkrarlamaq kimi meyllər görünür. Ermənistan Azərbaycan COP-a ev sahibliyi etdikdən sonra biomüxtəliflik üzrə COP-a ev sahibliyi etməklə bağlı namizədliyini irəli sürüb və bu tədbir oktyabr ayında Ermənistanda keçiriləcək. Ancaq Azərbaycanı regiondakı digər ölkələrdən fərqləndirən xüsusiyyət Qlobal Cənubun, yəni inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrin Azərbaycana eyni dərəcədə etimadının olması və Azərbaycanın onlar arasında körpü rolunu oynaya bilməsidir. Bu, yalnız bir tədbirə ev sahibliyi etməklə məhdudlaşan, o vasitə ilə fəallığı nümayiş etdirən göstərici deyil, ümumilikdə Azərbaycan diplomatiyasının, ölkə başçımızın rəhbərliyi ilə Onun müəyyən etdiyi xarici siyasət kursuna uyğun olaraq, ölkəmizə olan etimadın göstəricisidir.

## COP29-un nəticələri BMT səviyyəsində yüksək qiymətləndirilsə də, qərarların tam yerinə yetirilməməsi məyusluq doğurur

COP29 artıq tarix olsa da, dünyada onun gözəl mirası unudulmur. Bir qədər bundan əvvəl Londonda baş tutan İqlim Həftəsində BMT-nin Baş katibi COP29 çərçivəsində əldə olunmuş nəticələri yüksək qiymətləndirərək bu uğurlardan məmnunluğunu ifadə edib. Antonio Quterreş Azərbaycanın COP29 Sədrliyi dövründə qazandığı təcrübənin gələcək iqlim prosesləri üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, bu təcrübənin COP31-ə ev sahibliyi edəcək Türkiyə, eləcə də növbəti COP sədrlikləri ilə paylaşılmasının vacibliyini qeyd edib.

Həqiqətən də, ev sahibi ölkəsi olan Azərbaycanın səyləri ilə Bakıda COP tarixində bir sıra ilklərə imza atılması və dünya üçün son dərəcə böyük əhəmiyyət daşıyan substantiv nəticələrin əldə olunması böyük nailiyyət idi.

Lakin COP29-da qəbul olunan qərarların bütünlüklə yerinə yetirilməməsi məyusluq doğurur. Yalçın Rəfiyev xatırladıb ki, COP29-da qəbul edilən ən mühüm qərarlardan biri Bakı İqlim Maliyyəsi Hədəfi oldu və bu qərarla illik 300 milyard ABŞ dolları həcmində iqlim maliyyəsinin təmin olunması nəzərdə tutuldu. Bu, həmin dövr üçün xüsusi irəliləyiş idi. Ancaq bu qərarın icrası daha vacibdir. İcra ilə bağlı müşahidə etdiyimiz proseslər bundan ibarətdir ki, geosiyasi mənzərədə baş verən dəyişikliklər, bəzi dövlətlərin öz hərbi təhlükəsizlik xərclərini artırması və iqlimlə əlaqədar olan büdcə xərclərinin milli təhlükəsizliyə, müdafiəyə yönəldilməsi nəticəsində bu hədəfə çatmaqla bağlı hələlik optimist mənzərə yoxdur. Öhdəliklərini yerinə yetirməyən dövlətlər dedikdə, Paris Sazişinə əsasən, vəsaiti təmin etməli olan inkişaf etmiş dövlətlər nəzərdə tutulur. Onu təmin etməli olan dövlətlərdə baş verən büdcə dəyişiklikləri, iqlimlə bağlı nəzərdə tutulan vəsaitin müdafiə və təhlükəsizlik xərclərinə yönəldilməsi hazırda bununla bağlı optimist proqnoz verməyə çətinlik yaradır.

## COP29-dan COP31-ə - estafet qardaş Türkiyəyə ötürülür

Hər iki ölkədə aparılan fəal iqlim diplomatiyası Azərbaycanla Türkiyəni yaxınlaşdıran daha bir mühüm istiqamətdir. Həm Türkiyənin, həm də Azərbaycanın milli gündəliyində iqlim məsələləri ilə bağlı üst-üstə düşən çoxlu məqamlar var. COP29 Cənubi Qafqaz və Xəzər hövzəsini qlobal iqlim gündəmi ilə daha sıx əlaqələndirdi. Bakıdakı sammitdən sonra prosesin ötən il Braziliyada COP30 ilə davam etməsi və bu il Antalyada keçiriləcək COP31 ilə estafetin Türkiyəyə ötürülməsi iqlim diplomatiyası baxımından mühüm varislik imkanı yaradır.

Coğrafi cəhətdən bir-birinə yaxın iki ölkənin qısa fasilə ilə bu prosesə daxil olması regionun prioritetlərinin beynəlxalq arenada daha güclü şəkildə təqdim edilməsini təmin edə bilər. Beləliklə, Bakıda güclənən iqlim gündəmi xüsusilə ədalətli enerji keçidi və enerji təhlükəsizliyi məsələlərində Antalyada bir addım irəli aparılmaq fürsəti qazanacaq. Türkiyənin COP31-ə ev sahibliyi etməsi ölkənin iqlim diplomatiyasındakı nüfuzunu artıracaq və "2053-cü il xalis sıfır emissiya" hədəfi istiqamətində atdığı addımları qlobal səviyyədə daha nəzərəçarpan edəcək. Avropa ilə Asiya arasındakı coğrafi və strateji mövqeyi Türkiyəni bu prosesdə qlobal iqlim diplomatiyasında müxtəlif tərəflər arasında körpü qura biləcək və yaşıl transformasiyanı sürətləndirəcək aktora çevirir.

Azərbaycan XİN rəsmisi bildirib ki, ümumiyyətlə, hər COP-dan müəyyən gözləntilər olur. Bakı COP-undan iqlim maliyyəsi ilə bağlı, Braziliyadan adaptasiya ilə bağlı gözləntilər var idi. Bu il də bir neçə istiqamətdə qərarlar gözlənilir. Xüsusilə də ədalətli keçid üzrə fəaliyyət proqramı, adaptasiya ilə bağlı bir neçə qərar layihələri var. Ancaq Türkiyə tərəfinin fəallığı və təşəbbüsü nəticəsində Türkiyədə eyni zamanda 2035-ci ilə qədər bütün dövlətlər üçün elektrikləşmənin həddini müəyyən etmək hədəfi var. Bu qərar olacağı təqdirdə Antalya COP-u tarixdə yaddaqalan COP-lardan biri kimi xarakterizə ediləcək. Bu baxımdan Şamaxı Toplantısında ilkin istiqamətlərdə müzakirələr aparıldı, ortaq anlayışların formalaşması üçün fikir mübadiləsi edildi.

*Mübariz FEYİZLİ*

# İqnasio Kassis: İsveçrə Azərbaycanın konstruktiv rolunu yüksək qiymətləndirir



İsveçrənin Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassis AZƏRTAC-a eksklüziv müsahibə verib. Müsahibəni təqdim edirik.

**- İsveçrə Konfederasiyası Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndə onu tanıyan ilk ölkələrdən biridir. Gələn il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 35 illiyi tamam olacaq. Bakıya səfəriniz ikitərəfli əlaqələrin gələcək inkişafına hansı töhfəni verəcək?**

- İsveçrənin Azərbaycanın müstəqilliyini erkən tanıması ölkələrimiz arasında sıx və davamlı münasibətlərin təməlini qoyub.

Səfərim siyasi dialoqumuzu dərinləşdirmək, iqtisadi əməkdaşlığı gücləndirmək və ortaq maraq doğuran regional və beynəlxalq məsələləri müzakirə etmək üçün gözəl fürsətdir. Diplomatik münasibətlərin qurulmasının 35-ci ildönümünə yaxınlaşdıqca, artıq indiyə qədər əldə olunan nailiyyətləri daha da artırmaq və tərəfdaşlığımızı daha da gücləndirmək istəyirik.

**- İsveçrə-Azərbaycan münasibətlərinin hazırkı dinamikasını necə xarakterizə edərdiniz?**

- İsveçrə və Azərbaycan arasında sıx və dinamik inkişaf edən əlaqələr mövcuddur və bu münasibətlər müntəzəm siyasi dialoqa əsaslanır. İllər ərzində ölkələrimiz arasında həyata keçirilmiş çoxsaylı yüksəksəviyyəli səfərlər və mübadilələr bu münasibətlərin necə möhkəm və davamlı olduğunu nümayiş etdirir.

Ermənistanla sülh istiqamətində əldə olunmuş irəliləyiş bütün region üçün, o cümlədən sabitlik və iqtisadi əməkdaşlıq baxımından yeni imkanlar yaradır. Azərbaycan Cənubi Qafqazda İsveçrənin mühüm tərəfdaşı və Avropa ilə Asiya arasında əsas əlaqədir və regional mərkəz kimi rolu da artmaqdadır.

Bretton Vuds institutları çərçivəsindəki əməkdaşlığımız münasibətlərimizin xüsusi bir istiqamətidir. Azərbaycanın İsveçrənin rəhbərlik etdiyi qurumda üzvlüyü etimad yaradır və müntəzəm siyasi dialoqa, siyasət koordinasiyasına və texniki əməkdaşlığa şərait yaradır.

İqtisadi əlaqələrimiz də inkişaf edir. İsveçrə son illərdə əhəmiyyətli dərəcədə artan enerji sektorundan başqa Azərbaycanın ixracı üçün əhəmiyyətli məkandır. Biz ticarət və investisiya sahəsində, xüsusilə də Azərbaycanın iqtisadi şaxələndirilməsini və innovasiyalarını dəstəkləyən sektorlarda daha çox potensial görürük.

**- Bakı həm də qlobal enerji layihələrinin mərkəzidir. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu necə qiymətləndirirsiniz?**

- Bugünkü geosiyasi kontekstdə enerji mənbələrinin və təchizat marşrutlarının şaxələndirilməsi Avropanın təhlükəsizliyi və dayanıqlığı üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan etibarlı enerji tərəfdaşına çevrilib və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rol oynayır. Onun töhfəsi yalnız bir təchizatçıdan asılılığı azaltmağa kömək edir, həmçinin daha sabit və şaxələndirilmiş enerji təchizatını təmin edir.

İsveçrə Azərbaycanın konstruktiv rolunu və Avropa ilə etibarlı enerji əməkdaşlığına sadiqliyini yüksək qiymətləndirir.

**- Azərbaycan Hökuməti və İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiya 2003-cü ildə təsis edilib. Artıq 20 ildən çoxdur fəaliyyət göstərən bu platformanın iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasında və investisiya mühitinin genişləndirilməsində rolunu necə qiymətləndirirsiniz?**

-Birgə İqtisadi Komissiya ikitərəfli münasibətlərimizin əsas alətidir. Bu, bizə konkret imkanları müəyyən etməyə, biznes mühitini yaxşılaşdırmağa, İsveçrə və Azərbaycan şirkətlərinin, xüsusilə də neft və qazdan başqa digər sektorlarda bir-birinə yaxınlaşmasına imkan yaradır.

Sentyabrın 15-də İsveçrədə keçiriləcək 10-cu iclas biznes-forum ilə birlikdə bu əməkdaşlığı dərinləşdirmək və yeni tərəfdaşlıqlar qurmaq üçün fürsət yaradacaq.

**- İsveçrə şirkətlərinin Azərbaycandakı, xüsusilə də işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrindəki fəaliyyətləri və gələcək əməkdaşlıq potensialı barədə də fikirlərinizi bölüşməyi xahiş edirik.**

- İnanıram ki, İsveçrə şirkətləri fəaliyyət göstərdikləri bazarlara faydalı təcrübə və innovasiya gətirə bilərlər.

Onların investisiya ilə bağlı qərarları müstəqil olaraq, bazar potensialına, iqtisadi dayanıqlığa, hüquqi müəyyənliyə və ümumi biznes mühitinə əsaslanaraq qəbul edilir. İsveçrə Hökumətinin rolu bu seçimləri istiqamətləndirmək deyil, şirkətlərin inamla investisiya qoyub inkişaf edə biləcəyi etibarlı investisiya şəraitinin yaradılmasına dəstək olmaqdır.

**- Azərbaycan Şərqlə Qərbi birləşdirən mühüm logistika mərkəzidir. İsveçrə Bakıdan keçən Orta Dəhliz layihəsinin inkişafında və bu infrastrukturdan yararlanmaqda nə dərəcədə maraqlıdır?**

- Azərbaycanın coğrafi mövqeyi ona Şərqlə Qərb arasında körpü rolunu oynamağa kömək edir.

İsveçrə Orta Dəhlizin inkişafında maraqlıdır, çünki etibarlı və şaxələndirilmiş ticarət yolları açıq və dayanıqlı qlobal iqtisadiyyat üçün çox əhəmiyyət kəsb edir. Logistika, infrastruktur və rəqəmsallaşdırma kimi sahələrdə əməkdaşlıq üçün potensial görürük.

Cenevrədə yerləşən "Mediterranean Shipping Company" (MSC) tərəfindən ötən il Bakıda nümayəndəliyin açılması Azərbaycanın regional nəqliyyat mərkəzi kimi roluna artan marağın bariz nümunəsidir.

**- Dünyada və regionda münaqişələrin artdığı bir vəziyyətdə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi - sülhün əldə olunması, Azərbaycan ərazisindən tranzit olmaqla Ermənistana yük daşımalarının həyata keçirilməsi, ölkəmizin Ermənistana yanacaq tədarükü və sair barədə də fikirləriniz maraqlı olardı.**

- İsveçrə Azərbaycanla Ermənistan arasında sülh istiqamətində əldə edilmiş irəliləyişi və uzun illərdir dəhşətli əzablar yaşadan münaqişənin öhdəsindən gəlmək üçün hər iki tərəfin nümayiş etdirdiyi siyasi iradəni alqışlayır.

Mən bunu həm İsveçrənin xarici işlər naziri, həm də ATƏT-in fəaliyyətdə olan sədri kimi bildirirəm. Qarşıdakı səfərim zamanı eyni mesajı Yerevana da çatdıracağam.

İsveçrə daima dialoq və etimadın qurulmasına sadiqdir. Cenevrədə 2022-ci ildə iki xarici işlər naziri arasında danışıqlar aparılıb və biz faydalı olduqda normallaşma istiqamətində atılacaq addımları dəstəkləməyə hazırıq.

Ticarətin, nəqliyyat əlaqələrinin və digər etimadın qurulması tədbirlərinin bərpası ümidvericidir. Ümid edirik ki, hər iki tərəf bu irəliləyişi davam etdirəcək və hər iki ölkənin xalqlarına fayda verən davamlı sülhə doğru irəliləyəcək.

Mən, həmçinin dekabr ayında ATƏT-in Nazirlər Şurası üçün Luqanoda Azərbaycan və Ermənistan xarici işlər nazirlərini qarşılamağı səbirsizliklə gözləyirəm. İsveçrənin sədrliyi dövründə biz ATƏT-i dialoq platforması kimi gücləndirmək niyyətindəyik. Bu, bütün 57 iştirakçı dövlətin hələ də eyni masa ətrafında oturduğu azsaylı yerlərdən biridir. Gərginlik dövründə bu danışıqları davam etdirmək özü artıq bir nailiyyətdir; bundan etibarı bərpa etmək üçün istifadə etmək isə bizim məsuliyyətimizdir.

# Korsika Assambleyasının təşəbbüsündə Paris izi...

## Assambleya Fransanın köləsi olmamalı, öz xalqının hüquqlarını qorumalıdır

Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Bu müstəmləkəçilik siyasətindən müxtəlif xalqlar hələ də əziyyət çəkir. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir. Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb.

Hazırda Fransa Afrikada, Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı bəzi ərazilərdə müstəmləkəçilik siyasətini davam etdirir. Bakı Təşəbbüs Qrupu isə Fransanın bu siyasətinə qarşı müxtəlif yerli və beynəlxalq səviyyəli tədbirlər keçirir. Həmin tədbirlərdə fransız müstəmləkəsindən əziyyət çəkən xalqların nümayəndələri də fəal iştirak edirlər. Artıq Azərbaycanın həmin xalqlara siyasi və mənəvi dəstək göstərməsi öz nəticəsini verməkdədir. Bu ilin iyun ayında Fransa Milli Assambleyası Korsikanın respublika daxilində muxtariyyət əldə etməsini nəzərdə tutan konstitusiya qanunu qəbul etməsi də bunun göstəricisidir. Həmin qanun layihəsi 271 lehinə, 202 əleyhinə səslə qəbul edilib. Bu qərar Fransanın nəzarətindəki bir ərazi üçün ilk belə təşəbbüs hesab olunur. Səsvermə 2022-ci ilin martında həbsxanada öldürülən korsikalı millətçi İvan Kolonnanın ölümündən sonra adada baş verən etirazların ardınca başlayan siyasi prosesin mühüm mərhələsi kimi qiymətləndirilir. Məhz həmin hadisələrdən sonra hökumət Korsikanın seçilmiş nümayəndələri ilə dialoqa başlamışdı.

Əlbəttə, Korsika xalqının azadlığı yolunda atılan bu addımda Azərbaycanın mənəvi və siyasi dəstəyi, Bakı Təşəbbüs Qrupunun fəaliyyəti vacib rol oynayıb. BTQ fəaliyyət göstərdiyi 3 il ərzində dünyanın siyasi gündəmində demək olar ki, unudulmuş kolonializm və neokolonializm problemlərini yenidən gündəmə gətirib, dekolonizasiya prosesinin əsas hərəkətverici platformasına çevrilib. Bu xüsusda müstəqillik uğrunda legitim mübarizə aparan tərəflərə dəstək verilib, kolonizə edilmiş xalqların azadlığı istiqamətində ardıcıl və nəticəyönümlü fəaliyyət göstərilib. Nəticədə müstəmləkəçilikdən əziyyət çəkən xalqların səsi qlobal gündəmə daşınıb, nüfuzlu beynəlxalq platformalarda müzakirə edilib. BTQ-nin ardıcıl və məqsədyönlü fəaliyyəti bu məsələlərin müvafiq mərkəzi hökumətlər səviyyəsində də diqqət mərkəzinə gətirilməsinə töhfə verib. Bu baxımdan Fransada Korsikanın muxtariyyət statusu ətrafında müzakirələrin aktivləşməsi və sözügedən qanunun qəbul olunması da nümunə kimi göstərilə bilər. Təsadüfi deyil ki, Azərbaycan dünyada kolonializmə qarşı mübarizənin mərkəzi, baş qərargahı kimi tanınır və müstəmləkəçilikdən əziyyət çəkən ərazilər ölkəmizə ümid yeri kimi baxır.



Bununla belə, Fransa hakimiyyəti də öz təsir imkanlarından sui-istifadə edərək müstəmləkə altında saxladığı ərazilərdə Azərbaycana qarşı təxribatçı addımlar atmağa çalışır. Korsika Assambleyasının qondarma "Artsax Respublikası" və Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş Ermənistan vətəndaşları ilə bağlı qəbul etdiyi ilkin "qanunvericilik təşəbbüsü" də bunun göstəricisidir. Bakı Təşəbbüs Qrupu Korsika Assambleyasının bu addımını qətiyyətlə pisləyib. Məsələ ilə bağlı BTQ-nin bəyanatında bildirilir ki, bu, birtərəfli, təxribat xarakterli və siyasi motivlərlə hazırlanmış təşəbbüsdür. Suverenlik, ərazi bütövlüyü və daxili işlərə qarışmamaq kimi fundamental prinsiplərə zidd olan bu təşəbbüs rəsmi Paris tərəfindən irəli sürülən geosiyasi narrativləri təkrarlayır. Bu "təşəbbüsü" dəstəkləyən şəxslərin davranışı ilk növbədə Korsika xalqının siyasi iradəsinin müstəqil ifadəsi kimi qiymətləndirilə bilməz. Onlar Fransanın xarici siyasət gündəmini ötürən vasitələr kimi çıxış etməyi seçərək, Korsikanın milli maraqlarını, dilini, mədəniyyətini və kimliyini müdafiə etməli olan nümayəndələrdən daha çox, Parisin siyasi alətlərinə - faktiki olaraq marionetlərinə çevriliblər.

Bu mövqenin ikiüzlülüyü xüsusilə diqqət çəkir. Minlərlə kilometr uzaqda öz müqəddəratını təyinetmə hüququndan yüksək səslə danışan eyni siyasi dairələr, Korsikanın özündə Korsika xalqının ən elementar dil və siyasi hüquqlarını təmin etmək istəmir. Nəzərə alaq ki, Fransa Konstitusiyasının 2-ci maddəsinə əsasən, fransız dili respublikanın yeganə rəsmi dilidir. Fransa məhkəmə orqanları Korsika və fransız dillərinin həm Korsika Assambleyasında müzakirə dili, həm də Korsika İcra Hakimiyyətinin işçi dilləri kimi tanınmasını nəzərdə tutan müddəaları ləğv edib. 2025-ci ilin iyun ayında isə Fransa Dövlət Şurası Korsika hakimiyyət orqanlarının həmin qərarlardan verdiyi apellyasiya şikayətinin qəbul olunmasından imtina edib. Bundan əlavə, Fransa 1999-cu ildə Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasını imzalasa da, bu günədək onu ratifikasiya etməyib. Avropa Şurası Korsika dilini Xartiyanın əhatə etdiyi tarixi regional dillərdən biri kimi açıq şəkildə tanıyır.




Əslində, Cənubi Qafqazla bağlı təşəbbüslər qəbul etməzdən əvvəl həmin nümayəndələr bir sıra suallara cavab verməlidirlər. Nə üçün onlar Korsika dilinə bərabər institusional status verməkdən imtina edən dövlətə tabe olaraq qalırlar? Yaxud, nə üçün rəsmi Paris tərəfindən həyata keçirilən mərkəzləşdirici və məqsədyönlü assimilyasiya siyasətinə qarşı eyni qətiyyəti nümayiş etdirmirlər? Digər tərəfdən, xaricdə dekolonizasiya ritorikasından istifadə etdikləri halda, Korsikanın kimliyi, təhsili, dili və siyasi qərarverməsi üzərində Fransa hökmranlığının davam edən nəticələrini görməzlikdən gəlinməsi təəssüf doğurur. Bakı Təşəbbüs Qrupu isə Korsika xalqı ilə Fransa hökumətinin maraqlarına xidmət edən və Korsikanın milli maraqlarını müdafiə etmək əvəzinə Parisə siyasi itaəti seçən şəxslər arasında aydın fərq qoyur.

Korsika xalqı Korsika dilini qoruyan, Korsika mədəniyyətini yaşadan və xalqın öz siyasi gələcəyini müəyyən etmək hüququnu ardıcıl şəkildə müdafiə edən nümayəndələrə layiqdir, Fransa xarici siyasətinin alətlərinə çevrilmiş nümayəndələrə deyil. BTQ Korsika Assambleyasını diqqətini, ilk növbədə, Korsika xalqının həll olunmamış hüquqlarına yönəltməyə çağırır. BTQ hesab edir ki, sözügedən Assambleya Fransadan Korsika dilinin tam institusional tanınması, onun təhsil, idarəetmə və ictimai həyatda maneəsiz istifadəsinə təminat verilməsini, Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasının ratifikasiya edilməsini, Korsika xalqının milli kimliyinin və mədəniyyətinin qorunmasını, Korsika xalqının siyasi iradəsinə və öz müqəddəratını təyinetmə hüququna həqiqi hörmət göstərilməsini tələb etməlidir. BTQ Korsika Assambleyasını siyasi və institusional müstəqilliyini qorumağa və Fransa dövlətinin milli gündəmini irəli aparan bir alətə çevrilməsinə imkan verməməyə çağırır.

Göründüyü kimi, Korsika Assambleyasının sözügedən "təşəbbüsündə" Parisin "barmağının" olduğu şübhəsizdir. Ən azı Cənubi Qafqazdan minlərlə kilometr uzaqda olan Korsikanın qurumu olan Asambleyanın vaxtilə mövcud olmuş separatçı "Artsax" rejiminin "varlığından" xəbəri olması inandırıcı deyil. Rəsmi Paris bu addımı ilə guya Azərbaycana təzyiq edəcəyini düşünür, amma yanılır. Yəqin ki, Assambleyanın belə lazımsız "təşəbbüsünə" elə azadlıqsevər Korsika xalqı lazımi cavab verəcək.

***Nardar BAYRAMLI***

# Ermənistanda yeni hökumət formalaşdı...

## Paşinyanın komandasında dəyişiklik yoxdur - bu nəyin anonsudur?

Xəbər verildiyi kimi, Ermənistanın baş naziri Nikol Paşinyan bazar günü protokol qaydası üzrə Ermənistan hökumətinin istefa verdiyini açıqlayıb. O bildirib ki, Ermənistan Konstitusiyasının 158-ci maddəsinə uyğun olaraq, hökumət yeni parlamentin ilk iclas günündə istefa verir. "Mən prezidentə ünvanlanmış müvafiq bəyanatı imzaladım və ondan hökumətin istefasını qəbul etməsini xahiş etdim", - deyə Paşinyan video müraciətində bildirib.

O qeyd edib ki, yeni hökumət formalaşana qədər icra orqanının üzvləri öz vəzifələrini yerinə yetirməyə davam edəcəklər. Paşinyan həmçinin bildirib ki, Konstitusiyanın 149-cu maddəsinə əsasən, prezident parlament çoxluğu tərəfindən irəli sürülən namizədi dərhal baş nazir təyin etməlidir. O bildirib ki, hakim partiya həmin gün öz namizədini təqdim edəcək və bundan sonra təyinat baş tutacaq. Xatırladaq ki, iyunun 7-də baş tutan parlament seçkisinin nəticələrinə görə, Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyası səslərin 49,7 faizdən çoxunu toplayıb. Bu, ona müstəqil şəkildə yeni hökumət qurmağa imkan verir. Rusiyalı erməni milyarder Samvel Karapetyanın başçılıq etdiyi "Güclü Ermənistan" partiyası təxminən 23,3 faiz, keçmiş prezident Robert Köçəryanın "Ermənistan" bloku isə seçicilərdən 9,9 faizdən bir az artıq səs alıb.

### Köhnə-yeni kabinet: cəmi 1 nazir təzədir...

Avqustun 3-də isə Ermənistan prezidenti Vaaqn Xaçaturyan 7 iyun parlament seçkiləri nəticəsində formalaşdırılan hökumətə baş nazirin müavinləri və nazirlər təyin edən fərmanlar imzalayıb. Məlumata görə, Tiqran Xaçatryan və Mqer Qriqoryan yenidən Ermənistanın baş nazirinin müavinləri təyin ediliblər. Arsen Torosyan öz vəzifəsində qalıb - o bundan sonra da əmək və sosial məsələlər naziri kimi funksiyasını davam etdirəcək. Anahit Avanesyan səhiyyə naziri, Srbuhi Qalyan ədliyyə naziri, Ararat Mirzoyan xarici işlər naziri, Janna Andreasyan təhsil, elm, mədəniyyət və idman naziri, Arpin Sarkisyan daxili işlər naziri, Hambardzum Matevosyan ətraf mühit naziri, Suren Papikyan müdafiə naziri və David Xudatyan ərazi idarəetməsi və infrastruktur naziri vəzifələrində təsdiq olunublar. Bundan başqa, Vahe Ovannisyan yenidən maliyyə naziri, Gevorg Papoyan isə iqtisadiyyat naziri vəzifələrinə təyin ediliblər. Davit Tadevosyan isə Yüksək Texnologiyalar Sənayesi naziri kimi fəaliyyət göstərəcək. Ermənistan prezidentinin fərmanı ilə Nikol Paşinyan yenidən baş nazir təyin edilib.



### Qalyan postunu qorudu - Konstitusiya dəyişikliyi prosesi sürətlənə bilər

Təyanatları təsdiqlənən simalar arasında ən çox diqqət çəkən nazirlərdən biri isə ədliyyə naziri Srbuhi Qalyandır. 2024-cü ildə ədliyyə naziri təyin olunan Qalyan Ermənistanın hökumət kabinetində ən gənc kadrlardan sayılır. O daha çox auditoriyaya Ermənistanın yeni Kosntitusiyasının işlənməsi məsələsi ilə tanışdır. Belə ki, Ermənistan ilə Azərbaycan arasında 2025-ci ilin avqustunda Vaşinqtonda sülh sazişi layihəsinin paraflanmasının ardından Ermənistanın əsas qanunlar toplusunda yer alan bəzi nüansların dəyişilməsi zərurəti meydana gəlmişdi. Azərbaycan tərəfi Konstitusiyanın preambulasında yer alan ərazi iddialarının sülh prosesinə kölgə saldığını bildirmişdi və bu kimi maddələrin Konstitusiyadan çıxarılması zərurətini irəli sürmüşdü. Bakı bu addımları sülh prosesinin əsas məqamlarından biri kimi ortaya qoymuşdu.

Ermənistan tərəfi isə Azərbaycanın bu haqlı mövqeyinin səslənməsinin ardından Konstitusiyanın dəyişdirilməsi və ya yenilənməsi istiqamətində müəyyən addımlar atır. Prosesə isə məhz Qalyan rəhbərlik edir. Bu ilin mayında ədliyyə naziri Srbuhi Qalyan Ədliyyə naziri yanında İctimai Şuranın ilk iclasında bildirmişdi ki, Ermənistanın yeni Konstitusiya layihəsinin mətni artıq hazırdır və hakim Vətəndaş Müqaviləsi Partiyasının idarə heyətinin və eyni adlı parlament fraksiyasının iclasında müzakirəyə çıxarılması planlaşdırılır. Nazir qeyd etmişdi mətnin dərc olunma tarixi barədə məlumatı yoxdur. "Konstitusiya İslahatları Şurası çox fəal işləyir. Biz hər həftə iclaslar keçiririk. Və söz verdiyim kimi, mətn hazırdır. Lakin hələlik onun dərc olunması ilə bağlı heç bir xəbərim yoxdur, çünki mətni Vətəndaş Müqaviləsi Partiyasının idarə heyəti və parlament fraksiyası ilə də müzakirə etmək qərara alınıb. Bundan sonra onun dərc olunması ilə bağlı qərar veriləcək", - nazir bildirib.

Artıq parlamentin yeni tərkibdə ilk iclasının baş tutduğunu nəzərə alsaq, prosesin yaxın zamanda yenidən aktivləşməsinin şahidi ola bilərik. Qalyanın öz postunda saxlanılması isə köhnə-yeni hakimiyyətin, dolayısı ilə baş nazir Paşinyanın bu məsələyə razılığının işarəsi sayılır.

### Mirzoyan və Qriqoryan qaldı - regional danışıqlar davam edəcək

Siyasi ekspertlərin fikrincə, baş nazir Nikol Paşinyanın rəhbərlik edəcəyi yeni-köhnə kabinet əvvəlki siyasi xəttini davam etdirəcək. Ermənistan mətbuatının yazdığına görə, əksər əsas nazirlərin vəzifələrində saxlanılması bunu təsdiqləyir. Kabinetin yeganə yeni üzvü Yüksək Texnologiyalar Sənayesi naziri təyin olunmuş Davit Tadevosyandır. Bu siyasətçinin isə xarici siyasət kursuna aidiyyatı yoxdur.

Ararat Mirzoyanın və Mqer Qriqoryanın öz vəzifəsində saxlanılması isə Ermənistanın regional siyasətində dəyişikliyin baş verməməsinə işarədir. Belə ki, həm Mizoyan, həm də Qriqoryan bölgədə dövlətlərarası münasibətlərin tənzimlənməsi üçün irəliləyən prosesdə əsas simalar sayılırlar. Mirzoyan ümumilikdə Ermənistanın xarici siyasətinə cavabdehlik daşıyırsa da, Qriqoryan əsasən Azərbaycan ilə müvafiq delimitasiya və demarkasiya işlərini həyata keçirən komissiyaya rəhbərlik edir. Bu təyinatlar onu göstərir ki, Ermənistan hakimiyyəti prosesi davam etdirmək iradəsindən geri çəkilməyib.

### Rusiya-Ermənsitan münasibətləri dəyişəcəkmi?

Ermənistanda yeni hökumətin formalaşdırılması ölkənin xarici siyasətində ciddi dəyişiklik gözlənilmədiyini göstərir. Xüsusilə iqtisadiyyat, müdafiə və xarici işlər nazirlərinin vəzifələrini qoruması baş nazir Nikol Paşinyanın son illərdə müəyyənləşdirdiyi siyasi xəttə sadiq qaldığını nümayiş etdirir. Bu seçim təsadüfi deyil. Məhz həmin qurumlar Ermənistanın təhlükəsizlik, iqtisadi inteqrasiya və beynəlxalq tərəfdaşlıq siyasətini müəyyənləşdirən əsas institutlardır.

Sirr deyil ki, son illərdə İrəvanın Qərblə münasibətləri nəzərəçarpacaq dərəcədə genişlənib, Avropa İttifaqı və ABŞ-la daha isti təmaslar nəzərə çarpır. Bunun fonunda Rusiya ilə münasibətlərdə yaranan fikir ayrılıqları, KTMT çərçivəsində qarşılıqlı ittihamlar və təhlükəsizlik sahəsində yaşanan narazılıqlar daha da dərinləşib - Rusiya prezidenrti Putin ilə Paşinyan arasındakı son telefon danışığı da bu faktı təsdiqləyir. Məhz bu telefon zənginin ardından Paşinyanın yeni hökumətdə fundamental dəyişikliklər etməməsi göstərir ki, təzyiqlər hakimiyyəti seçdiyi kursdan çəkindirə bilməyib. Bununla belə, Rusiyanın regiondakı təsiri və Ermənistanın iqtisadi, enerji və logistika baxımından Moskvadan asılılığı İrəvanın tamamilə fərqli geosiyasi xətt seçməsini çətinləşdirir. Bu səbəbdən yeni kabinet dövründə də Ermənistan-Rusiya münasibətlərində ziddiyyətlər, qarşılıqlı etimadsızlıq və siyasi dilemmaların davam edəcəyi gözlənilir. Yəni hökumət dəyişsə də, Paşinyanın müəyyən etdiyi strateji kursun əsas konturları dəyişməz qalır.

***P.İSMAYILOV***

# Rusiya-Ukrayna müharibəsi bitir?

## Kiyev "qışa qədər" deyir, Moskva isə nə təsdiq edir, nə də təkzib...

Rusiya-Ukrayna müharibəsinin bu il bitməsi ehtimalı ortaya çıxıb. Belə ki, Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, Ukrayna Rusiyanın apardığı müharibənin 2026-cı ilin qışı başlamazdan əvvəl başa çatması üçün hər şeyi edəcək. Kiyevdə səfirlərin müşavirəsi zamanı Zelenski Rusiyanı ən qısa zamanda sülhə məcbur etməli olan dəqiq növbəti addımlar planını açıqlayıb: "Bu il sizin vəzifəniz Ukrayna hökumətinin tərəfdaşlarla xarici əlaqələrinə maksimum dəstək verməkdir. Bütün diplomatik səylərin, Ukraynanın Rusiyaya qarşı uzunmüddətli sanksiyalarının və bütün tərəfdaş sanksiyalarının nə vaxt işə yarayacağını 100% dəqiqliklə proqnozlaşdırmaq hazırda mümkün deyil. Lakin onlar elə bir təzyiq səviyyəsinə çatmalıdır ki, Rusiyanın sülhdən başqa alternativi qalmasın. Çalışacağıq ki, bu, qış gəlməmiş, payızda baş versin, lakin kiminlə iş gördüyümüzü aydın başa düşürük və Putin bu müharibəni bundan sonra da uzatmağa ümid edir. O, səfərbərlik və yeni hücumlar hazırlayır".

Zelenski əlavə edib ki, Kiyev Moskvaya beynəlxalq təzyiq və Rusiya ərazisinə zərbələr endirməklə münaqişəyə son qoymağa çalışacaq. Qeyd edək ki, bundan əvvəl ukraynalı ekspert Andrey Dliqaç xüsusi əməliyyatın bitmə vaxtını proqnozlaşdırmışdı. O, qarşılıqlı raket zərbələrinin dinamikasını nəzərə alaraq, Ukraynada hərbi əməliyyatların 2027-ci ilin mart-aprel aylarında başa çata biləcəyinə əminliyini ifadə etmişdi.

### Tramp da sülh deyir...

Siyasi ekspertlərin fikrincə, demək olar ki, 6 aydan sonra yenidən sülh mesajlarının verilməsində Zelenskinin ötən ayın sonunda ABŞ-a reallaşan səfərinin mühüm əhəmiyyəti var. Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşdən sonra əsas məqsədinin Rusiya ilə Ukrayna arasındakı müharibəyə mümkün qədər tez son qoymaq olduğunu bildirmişdi. Tramp Ukrayna lideri ilə görüşün yaxşı keçdiyini bildirərək qeyd etmişdi ki, "Görüş yaxşı keçdi. O, öz işini görür. Mən onun müharibəyə son qoymasını istərdim. Bu, çox sadədir".

Tramp həmçinin həm Ukrayna Prezidenti, həm də Rusiya dövlət başçısı Vladimir Putin ilə işgüzar münasibətlər saxladığını və döyüşlərə son qoymağı əsas prioritet hesab etdiyini vurğulamışdı. O bildirmişdi ki, "Mən həm Prezident Putin, həm də Prezident Zelenski ilə yola gedirəm. Ona dediyim kimi, müharibəyə son qoymaq istəyirəm", - deyə o qeyd edib.

ABŞ Prezidenti bir daha müharibədə baş verən çoxlu sayda insan itkisinə diqqət çəkmişdi: "Keçən ay 25.000 nəfər ölüb".

### Vitkoff və Kuşner Kiyevə gedəcəklər?

Xarici media isə avqust ayında müharibənin bitməsi ilə bağlı prosesin daha da sürətlənəcəyini yazır. Bildirilir ki, ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff və Cared Kuşner Ukraynanın müstəqilliyinin 35-ci ildönümü ilə bağlı tədbirlər çərçivəsində Kiyevə səfər edə bilərlər. Mənbələrin məlumatına görə, Amerika rəsmilərinin səfəri Ukraynanın Müstəqillik Gününün qeyd olunması ilə üst-üstə düşməsi planlaşdırılır. Səfərin yekun təsdiqi hələ verilməyib. Xatırladaq ki, Ukrayna Prezidenti Volodimir Zelenski Vitkoff və Kuşneri Ukraynaya səfərə dəvət etdiyini açıqlamışdı. Dövlət başçısının sözlərinə görə, Ukraynaya şəxsi səfərdən sonra Amerika nümayəndələri müharibə və onun nəticələri barədə daha dolğun məlumat əldə edə biləcəklər.

Vurğulandığı kimi, Stiv Vitkoff və Cared Kuşnerin Ukraynaya səfəri artıq aktiv müzakirə predmetidir. Sülh danışıqlarındakı çıxılmaz vəziyyət və Yaxın Şərqdəki müharibə səbəbindən bu səfər bir neçə dəfə təxirə salınmışdı.



### Rusiya da bitirmək istəyini irəli sürür, amma...

Rusiya isə müharibənin bitməsi ehtimalı ilə bağlı hələ ki, rəsmi açıqlama verməyə tələsmir - Kremlə yaxın bəzi ekpertlər isə bu şansı dəyərləndirirlər. Dövlət Dumasının Müdafiə Komitəsinin üzvü, təqaüddə olan general-leytenant Viktor Sobolev NEWS.ru-ya bildirib ki, hazırda xüsusi hərbi əməliyyatın 2026-cı ilin sonuna qədər başa çatması üçün heç bir səbəb görmür. Onun sözlərinə görə, vaxt qrafiki yalnız orduya verilən tapşırıqlar tam yerinə yetirildikdən sonra müzakirə edilə bilər. Sobolev əminliklə bildirib ki, hərbi qarşıdurmaya son qoymaq üçün Rusiya ordusu Ukraynanın qərb sərhədlərinə çatmalıdır. Onun fikrincə, müasir dronların uçuş məsafəsi daim artır və bufer zonasının hazırkı dərinliyi nəticədə qeyri-kafidir.

Qeyd edək ki, Federasiya Şurası Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Qriqori Karasin Rusiyanın hərbi əməliyyatları bu il ərzində başa çatdırmağı hədəflədiyini bildirmişdi. Lakin o əlavə etmişdi ki, bu planın həyata keçirilməsi yalnız Moskvanın səylərindən, Rusiya ordusunun iradəsindən və ya Rusiya xalqının qətiyyətindən asılı deyil. Bu məqsədə çatmaq Rusiya strukturlarının daxili uyğunluğu, beynəlxalq vəziyyət və Qərb ölkələrinin hərəkətləri də daxil olmaqla bir sıra mürəkkəb şərtlərdən təsirlənir.

Siyasi ekspertlər isə Zelenski qədər "optimist" deyillər. Onların fikrincə, hər iki tərəfin bu il münaqişəyə son qoymaq istədikləri barədə açıq fikirlərinə baxmayaraq, 2026-cı ilin qışına qədər müharibənin tamamilə bitməsi ehtimalı çox aşağıdır. Xüsusilə Qərb hərbi ekspertləri və analitikləri qarşıdakı aylarda sülh yolu ilə həll üçün praktik olaraq heç bir real perspektivin olmadığı qənaətindədirlər. Hazırda münaqişə uzunmüddətli müharibə kimi inkişaf etməyə davam edir və tərəflərin mövqeyində hansısa fundamental dəyişiklik nəzərə çarpmır. Rusiyanın mövqeyi bəllidir - Kremlin və əsas Rusiya siyasətçilərinin hərbi əməliyyatlara son qoymaqla bağlı rəsmi mövqeyi sərhəd məsələsinə əsaslanır - Moskvanın qənaətinə görə, Rusiyanın nəzarətində olan ərazilərin Rusiya Federasiyasının bir hissəsi kimi tanınması, eləcə də Rusiyanın özünün elan etdiyi, lakin hələ tam olaraq sahib olmadığı ərazilər üzərində tam nəzarətin təmin edilməsi. Xatırladaq ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirmişdi ki, Ukrayna "düzgün qərarlar" verərsə və təşəbbüs göstərərsə (Rusiyanın şərtlərinin qəbulunu nəzərdə tutur), münaqişə diplomatik kanala keçə bilər. .

### Kompromiss ehtimalı aşağıdır...

Ukraynanın mövqeyinə gəldikdə isə, Zelenski açıq şəkildə bəyan edir ki, Kiyev qış soyuğu başlamazdan əvvəl Rusiyanı sülhə məcbur etmək üçün mümkün olan hər şeyi etməyə çalışır. Ukraynanın əsas məqsədi Rusiya hərbi maşınını mümkün qədər tükəndirmək və diplomatik təzyiqi artırmaqdır. Analitiklərin fikrincə, hər iki tərəf rəqibi tükəndirməyə çalışır. Bu isə həmin dövlətə danışıqlar prosesində mövqelərini gücləndirmək üçün əlavə stimul verəcək.

Beləliklə, fikirlər aydın səslənsə də, payızda kompromis ehtimalı az görünür. Ukrayna və Qərb mənbələri bildirir ki, qışdan əvvəl real atəşkəs şansları demək olar ki, yoxdur və tərəflər birbirinə təzyiq göstərmək üçün yeni yollar axtarmağa davam etməkdədirlər.

**P.İSMAYILOV**

# ABŞ - İran danışıqları bərpa ediləcəkmi?

İyulun 7-də Hörmüz boğazında üç ticarət gəmisinin hücuma məruz qalmasından sonra ABŞ-la İran arasında pozulan atəşkəs qarşılıqlı hücumlara çevrildi. Bugünlərdə isə hücumların dayandırıldığı və tərəflərin danışıqlar masasına qayıdacağı barədə nikbin fikirlər səslənir. Tərəflərin ziddiyyətli açıqlamaları isə bu nikbinliyi şübhə altına alır.

Xatırladaq ki, avqustun 1-də ABŞ Dövlət Departamenti Yaxın Şərqdəki amerikalılara bölgəni tərk etməyi düşünməyi və ya eskalasiya baş verərsə, getməyə hazır olmaları barədə geniş xəbərdarlıq etmişdi. Dövlət Departamenti həmçinin regiondakı vətəndaşlarına ehtiyatlı olmaq və sayıqlığı artırmaq, uçuşların ləğvinə, hava məkanının vaxtaşırı bağlanmasına və potensial səyahət pozuntularına hazır olmaqla bağlı xəbərdarlıqlarını yeniləyib. Bildirilirdi ki, Yaxın Şərqə səyahət etməyi planlaşdıran ABŞ vətəndaşları ciddi şəkildə yenidən düşünməlidirlər. Yeni səyahət xəbərdarlığının Vaşinqtonun ötən həftəsonu İrana yeni zərbələr endirəcəyi və Tehranın Amerika hərbi bazalarının yerləşdiyi ölkələrə qarşı daha çox hücumlar hədələdiyi ilə bağlı xəbərlərlə əlaqədar idi.

### Vaşinqton hücumları niyə dayandırıb?

Lakin region ölkələrinin müraciətindən sonra Vaşinqton bu hücumu təxirə salıb. Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud avqustun 1-də ABŞ Prezidenti Donald Trampla telefon danışığı zamanı bu ölkənin İrana qarşı yeni və güclü zərbələr endirmək planlarından narahatlığını bildirib. O, Donald Trampdan hücumlardan çəkinməsini istəyib. Həmçinin, Qətərdən olan vasitəçilər də avqustun 1-də İranın xarici işlər naziri Abbas Əraqçi, ABŞ-ın xüsusi elçisi Stiv Uitkoff və Oman nümayəndələri ilə məsləhətləşmələr aparıblar. Qətər tərəfi Hörmüz boğazında normal gəmiçiliyin bərpası ilə bağlı razılığa gəlməyə ümid edib. Prezident Donald Tramp avqustun 2-də bildirib ki, ABŞ ən güclü səviyyədə İrana qarşı hücuma hazır vəziyyətdədir: "Buna baxmayaraq, İran və digər Yaxın Şərq ölkələri razılaşma olduğu üçün bizdən hücumu dayandırmağımızı istədilər. Buraya Hörmüz boğazının dərhal və tam açılması, həmçinin İranın nüvə təhdidinə son qoyulması daxildir. Dünyanın gələcəyinin xeyrinə və eyni zamanda, uğurlu və çiçəklənən İran üçün tez bir zamanda razılaşma əldə etmək şərti ilə hücumu ləğv etməyə razı oldum. İsrail də bu öhdəliyə qoşulur". Trampdan xahiş edən Yaxın Şərq ölkələri konkret olaraq, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Oman və Qətərdir.

### Tehran isə təkzib edir

ABŞ Prezidenti vurğulayıb ki, razılaşmanın əldə olunmasına üstünlük verir: "Mən insanların öldürülməsini xoşlamıram". Ağ Evin rəhbəri İranla danışıqların avqustun 3-də günortadan sonra keçiriləcəyini desə də, bu danışıqlar baş tutmayıb. İran belə bir danışıqların baş tutmasını təkzib edib. Trampın məlum açıqlamasından sonra İran Xarici İşlər Nazirliyi bəyan edib ki, ABŞ ilə danışıqlar aparılmır və strateji su yolundan təhlükəsiz naviqasiyanı təmin etmək məqsədilə Hörmüz boğazında danışıqların bərpası ilə bağlı müsbət irəliləyişlər gözlənilir. Belə ki, hər iki tərəf İslamabad Anlaşma Memorandumu çərçivəsində birbaşa danışıqları bərpa etmək üçün vasitəçilərlə mesaj mübadiləsi aparıb.

Belə ziddiyyətli açıqlamalardan sonra ABŞ Prezidenti İranı ikiüzlülükdə ittiham edib. Tramp bildirib ki, İran tərəfi görüşmək istəyir, danışıqlar başlayır, yaxın gələcəkdə daha çox danışıqlar planlaşdırılır. Daha sonra heç bir müzakirə aparmadıqlarını deyirlər. Onun sözlərinə görə, İran Hörmüz boğazını idarə etdiyini desə də, o, artıq ABŞ Hərbi Dəniz Qüvvələri tərəfindən tamamilə nəzarətdədir. "Razılaşma və ya tam təslim olmadıqca İrana heç nə keçməyəcək. İran bunu etiraf etmək istəsə də, istəməsə də, əslində, onilliklərdir onların yaratdığı problemin həllindən danışırıq",- deyə Tramp əlavə edib.



müvəqqəti marşrut yaratmaq üçün Omanla müzakirələr davam edir. Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai Tehranın Maskat ilə danışıqlarının strateji su yolundan müvəqqəti gəmiçilik marşrutu yaratmağı hədəflədiyini deyib. XİN sözçüsü bildirib: "Omanla hazırkı müzakirələrimiz Hörmüz boğazında gəmilərin təhlükəsiz keçidini təmin etməyə yönəlib. Hörmüz boğazında gəmiçiliyin təhlükəsizliyini təmin edə bilmək üçün Omanla əməkdaşlıq şəraitində mümkün qədər tez vaxtda müvəqqəti marşrut yaratmağa çalışırıq". Bəqai, həmçinin Tehran ilə Vaşinqton arasında danışıqlar barədə məlumatları təkzib edərək söyləyib ki, Hörmüz boğazındakı vəziyyət ABŞ-ın təcavüzkar hərəkətlərinin və blokadasının davam etdiyi müddətcə dəyişməyəcək.

Pakistan hökuməti mənbələri də avqustun 3-də bildirmişdilər ki, ABŞ ilə İran arasında aylarla davam edən müharibəyə son qoymaq məqsədilə uzun müddətdir dayandırılmış birbaşa danışıqların bərpası üçün hələlik heç bir tarix və ya məkan müəyyən edilməyib. "Anadolu" agentliyinin İslamabad bürosunun məlumatına görə, Pakistanın XİN rəsmisi bunu ABŞ Prezidenti Donald Trampın İranla yeni danışıqların avqustun 3-də günortadan sonra başlayacağı barədə verdiyi açıqlamaya cavab olaraq bildirmişdi. Onun sözlərinə görə, Pakistan və Qətər vasitəçiləri birbaşa danışıqların bərpası üçün tarix və məkanı dəqiqləşdirmək məqsədilə Vaşinqton və Tehranla əlaqə saxlayırlar. Mənbə əlavə edib ki, İslamabad və Doha danışıqlar üçün potensial məkanlar arasındadır. Pakistanın daxili işlər naziri Möhsin Nəqvinin danışıqların bərpası ilə bağlı məsələləri müzakirə etmək üçün Tehrana səfər edəcəyi də gözlənilir.

Pakistan rəsmisi bildirib ki, bu həftə danı-

### İran nümayəndələri İslamabada dəvət olunub

Ağ Ev rəhbəri Tehranla danışıqların davam etdiyini də söyləyib: "Bu, yaxşı bir sənəd imzalamaq üçün onların son şansıdır. Danışıqlar bu və ya digər istiqamətdə sürətlə gedəcək. Burada mürəkkəb heç nə yoxdur. Biz Hörmüz boğazının tamamilə açılmasını danışırıq. Bu, birinci mərhələdir və ikinci mərhələdə nüvə silahı haqqında danışacağıq. Biz bu məsələdə çox güclüyük, onların nüvə silahı ola bilməz".

Pakistan isə ötən gün İranın yüksəksəviyyəli nümayəndələrini ABŞ ilə dayandırılmış birbaşa danışıqların bərpası və diplomatik səylərin müzakirəsi üçün ən qısa zamanda İslamabada səfərə dəvət edib. Xarici işlər naziri İshaq Dar iranlı həmkarı Abbas Əraqçi ilə telefon danışığı əsnasında regional və beynəlxalq məsələləri müzakirə edib. İranlı nazir Hörmüz boğazında naviqasiyanın bərpası üzrə Tehran və Maskat arasında aparılan danışıqlar barədə Pakistanın xarici siyasət idarəsinin rəhbərinə məlumat verib. Bununla yanaşı, Pakistan Milli Məclisinin sədri Ayaz Sadiq Tehranın baş müzakirəçisi Baqer Qalibafı Pakistana səfərə dəvət edib. Lakin İran rəsmilərinin İslamabada səfərinin vaxtı ilə bağlı dəqiq məlumat yoxdur.

**N.BAYRAMLI**

# Süni intellekt uğrunda qlobal rəqabət

## Çin və ABŞ arasında yeni texnoloji mübarizə

XXI əsrin geosiyasi rəqabəti artıq yalnız neft yataqları, təbii sərvətlər və ya hərbi bazalar uğrunda aparılmır. Dünyanın aparıcı dövlətləri arasında əsas mübarizə süni intellekt texnologiyalarına nəzarət uğrunda gedir. Əgər XX əsrdə dövlətlərin qlobal gücünü atom silahına sahib olmaq müəyyən edirdisə, XXI əsrdə bu rolu getdikcə süni intellekt öz üzərinə götürür. Məhz buna görə ABŞ və Çin arasında rəqabət artıq texnoloji suverenlik və gələcəyin idarə olunması uğrunda strateji mübarizəyə çevrilib. Süni intellekt qısa müddət ərzində iqtisadiyyatın, sənayenin, maliyyənin, səhiyyənin, təhsilin və dövlət idarəçiliyinin ayrılmaz hissəsinə çevrilib. Bununla yanaşı, hərbi texnologiyalar, kəşfiyyat, kibertəhlükəsizlik və kosmik proqramlarda AI sistemlərinin tətbiqi dövlətlərin milli təhlükəsizlik strategiyalarında yeni mərhələnin başlanğıcını qoyub. Artıq süni intellektə sahib olmaq sadəcə texnoloji üstünlük deyil, geosiyasi təsir imkanlarının əsas göstəricilərindən biridir.

ABŞ uzun illər texnoloji innovasiyaların əsas mərkəzi kimi lider mövqeyini qoruyub saxlayıb. Dünyanın ən böyük texnologiya şirkətləri, aparıcı universitetləri, innovasiya fondları və risk kapitalı sistemi məhz bu ölkədə formalaşıb. Süni intellekt sahəsində OpenAI, Google DeepMind, Anthropic, Microsoft və NVIDIA kimi şirkətlərin fəaliyyəti ABŞ-ın qlobal üstünlüyünü daha da gücləndirib. Xüsusilə yüksək məhsuldarlıqlı çiplərin istehsalı və AI modellərinin hazırlanması sahəsində Vaşinqton hələ də mühüm üstünlüyə malikdir. Lakin son on il ərzində Çin də bu sahədə görünməmiş sürətlə irəliləyib. Pekin süni intellekti milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri elan edib, dövlət büdcəsindən bu sahəyə milyardlarla dollar vəsait ayırıb və bu texnologiyanın iqtisadiyyatın bütün sahələrinə inteqrasiyasını sürətləndirib. Çin artıq yalnız texnologiya idxalatçısı kimi yox, yeni texnoloji standartlar formalaşdırmağa çalışan qlobal oyunçu kimi çıxış edir. Bu məqsədlə rəsmi Pekin beynəlxalq əməkdaşlıq mexanizmlərini də genişləndirir. Şanxayda süni intellekt sahəsində beynəlxalq əməkdaşlığın koordinasiyasını gücləndirmək məqsədilə yeni platformaların və çoxtərəfli təşəbbüslərin yaradılması Pekinin texnologiya sahəsində qlobal təsir imkanlarını artırmaq strategiyasının tərkib hissəsidir. Bu təşəbbüslərin əsas məqsədi yalnız elmi əməkdaşlığı inkişaf etdirmək deyil, həm də gələcək texnoloji idarəetmə qaydalarının formalaşdırılmasında Çinin rolunu gücləndirməkdir.

Amerikalı siyasi strateq Henri Kissincer hələ bir neçə il əvvəl qeyd edirdi ki, süni intellekt bəşəriyyətin inkişafında nüvə texnologiyasının yaranması qədər ciddi geosiyasi dəyişikliklərə səbəb ola bilər. Onun fikrincə, bu texnologiya yalnız iqtisadi üstünlük yaratmır, eyni zamanda dövlətlərin qərar qəbuletmə mexanizmlərini, beynəlxalq münasibətləri və qlobal güc balansını kökündən dəyişdirir. Bu baxımdan AI uğrunda rəqabət gələcək dünya düzəninin necə formalaşacağını müəyyən edən əsas amillərdən biridir. ABŞ və Çin arasında texnoloji rəqabət artıq ticarət mübahisələri mərhələsini çoxdan geridə qoyub. Mikroçiplərin ixracına tətbiq olunan məhdudiyyətlər, yüksək texnologiyaların transferinə nəzarətin sərtləşdirilməsi, strateji investisiyaların məhdudlaşdırılması və rəqəmsal platformalar ətrafında yaranan qarşıdurmalar göstərir ki, dünya yeni “texnoloji soyuq müharibə” mərhələsinə adlayır. Burada əsas silah tanklar və raketlər deyil, məlumat bazaları, alqoritmlər, kvant hesablamaları və yüksək məhsuldarlıqlı prosessorlardır. Ən ciddi narahatlıq doğuran məqam isə ondan ibarətdir ki, bu rəqabətin vahid beynəlxalq hüquqi çərçivəsi hələ formalaşmayıb. Texnologiyalar misli görünməmiş sürətlə inkişaf edir, lakin onlardan istifadəni tənzimləyən beynəlxalq normalar eyni sürətlə yenilənmir. Nəticədə dünya elə bir mərhələyə yaxınlaşır ki, burada süni intellekt yalnız iqtisadi inkişafın mühərrikinə yox, dövlətlər arasında yeni geosiyasi qarşıdurmaların səbəblərindən birinə də çevrilə bilər.




Süni intellekt sahəsində ABŞ və Çin arasında gedən rəqabət təkcə texnoloji yeniliklərin sürətini müəyyən etmir, bu rəqabət qlobal iqtisadiyyatın gələcək strukturunu, beynəlxalq ticarət qaydalarını və dövlətlərin siyasi nüfuz imkanlarını da yenidən formalaşdırır. Məhz buna görə bir çox ekspert hesab edir ki, XXI əsrdə süni intellekt neft, qaz və nadir faydalı qazıntılardan daha qiymətli strateji resursa çevriləcək. Hazırda rəqabətin əsas istiqamətlərindən biri yüksək məhsuldarlıqlı mikroprosessorların istehsalıdır. Süni intellekt sistemlərinin inkişafı üçün böyük hesablama gücü tələb olunur, bu imkana malik dövlət texnoloji üstünlük əldə edir. ABŞ son illər qabaqcıl çiplərin ixracına məhdudiyyətlər tətbiq etməklə Çinin texnoloji inkişaf tempini zəiflətməyə çalışır. Pekin isə buna cavab olaraq daxili istehsal potensialını artırır, yarımkeçirici sənayesinə milyardlarla dollar həcmində investisiya yatırır, xarici texnologiyalardan asılılığı minimuma endirməyə çalışır. Beləliklə, iqtisadi rəqabət artıq texnoloji müstəqillik uğrunda mübarizəyə çevrilib.

Digər mühüm istiqamət məlumat resursları uğrunda mübarizədir. Süni intellekt sistemlərinin inkişafı böyük həcmdə məlumat bazalarının mövcudluğundan birbaşa asılıdır. Kim daha çox və daha keyfiyyətli məlumat emal edə bilirsə, daha güclü alqoritmlər də yarada bilir. Bu səbəbdən rəqəmsal məlumatlar artıq XXI əsrin ən qiymətli strateji aktivlərindən biri hesab olunur. Dövlətlər məlumat təhlükəsizliyini milli təhlükəsizlik məsələsi kimi qiymətləndirməyə başlayıb.

Rəqabətin yeni mərhələsində beynəlxalq təşkilatlar da fəallaşmağa başlayır. Şanxayda yaradılan süni intellekt üzrə beynəlxalq əməkdaşlıq platforması bu baxımdan xüsusi diqqət çəkir. Platformanın əsas məqsədi AI sahəsində elmi əməkdaşlığı genişləndirmək, texnologiyaların təhlükəsiz inkişafını təşviq etmək və qlobal idarəetmə mexanizmlərinin formalaşdırılmasına töhfə verməkdir. Bununla yanaşı, bu təşəbbüs Çinin beynəlxalq texnoloji siyasətdə daha fəal rol oynamaq niyyətini də nümayiş etdirir. Pekin süni intellekt sahəsində beynəlxalq standartları müəyyən edən aktorlardan birinə çevrilməyi qarşısına məqsəd qoyur.

ABŞ isə paralel olaraq müttəfiqləri ilə texnoloji tərəfdaşlığı gücləndirir. “Chip 4” təşəbbüsü, AUKUS çərçivəsində texnologiya əməkdaşlığı, G7 ölkələrinin süni intellektlə bağlı qəbul etdiyi qərarlar və Avropa İttifaqı ilə koordinasiya göstərir ki, Vaşinqton bu rəqabətə təkbaşına yox, geniş koalisiya formatında yanaşır. Bu isə texnologiya sahəsində yeni geosiyasi bloklaşmanın formalaşdığını göstərən əlamətlərdən biridir.

Böyük Britaniyanın Oksford Universitetinin professoru Nik Bostrom hesab edir ki, süni intellekt üzərində nəzarət gələcəkdə dövlətlərin iqtisadi imkanlarından çox onların strateji təhlükəsizlik potensialını müəyyənləşdirəcək. Onun fikrincə, AI texnologiyalarında qazanılan üstünlük yalnız iqtisadi gəlir yox, həm də diplomatik təsir, hərbi planlaşdırma, kəşfiyyat fəaliyyəti və informasiya üstünlüyü deməkdir. Bu səbəbdən dövlətlər süni intellekti milli gücün ayrılmaz elementi kimi qəbul etməyə başlayıblar. Bu rəqabətin ən təhlükəli tərəfi onun sürətidir - texnologiyalar ildən-ilə yox, aydan-aya dəyişir. Hüquqi mexanizmlər, etik normalar və beynəlxalq razılaşmalar isə bu inkişaf tempindən geri qalır. Əgər dövlətlər arasında qarşılıqlı etimad daha da zəifləyərsə, süni intellekt əməkdaşlıq vasitəsindən çox geosiyasi qarşıdurmanın alətinə çevrilə bilər. Bu gün artıq əsas sual süni intellekt sahəsində kimin qalib gələcəyi deyil; əsas məsələ budur ki, bu rəqabət bəşəriyyətin ümumi inkişafına xidmət edəcək, yoxsa XXI əsrin təhlükəli geosiyasi böhranlarının əsas səbəbinə çevriləcək? Məhz bu suallara verilən cavablar növbəti onilliklərdə dünya siyasətinin əsas gündəmini müəyyən edəcək.

ABŞ və Çin arasında süni intellekt sahəsində gedən rəqabət artıq yalnız iki dövlətin texnoloji üstünlük uğrunda mübarizəsi deyil. Bu proses beynəlxalq münasibətlər sisteminin yeni mərhələyə keçdiyini göstərir. Tarixə nəzər salanda görürük ki, hər bir texnoloji inqilab dünya siyasətində yeni güc mərkəzlərinin formalaşmasına səbəb olub. Sənaye inqilabı Böyük Britaniyanı, informasiya texnologiyaları ABŞ-ı qlobal liderə çevirdi. Bu gün isə süni intellekt həmin tarixi prosesi yenidən təkrarlayır və gələcəyin siyasi-iqtisadi xəritəsini formalaşdırır. Lakin bu dəfə vəziyyət daha mürəkkəbdir, süni intellekt yalnız iqtisadi artımı sürətləndirən texnologiya deyil. O, maliyyə sistemlərini, enerji sektorunu, səhiyyəni, nəqliyyatı, dövlət idarəçiliyini, kibertəhlükəsizliyi və hərbi əməliyyatların planlaşdırılmasını eyni vaxtda dəyişdirən universal texnoloji platformadır. Süni intellektə nəzarət edən dövlət gələcəyin iqtisadiyyatına, informasiya axınlarına və müəyyən mənada qlobal qərar qəbuletmə proseslərinə də təsir imkanları qazanacaq.

Proses orta və kiçik dövlətlər qarşısına da yeni vəzifələr qoyur. XX əsrdə inkişaf etməkdə olan ölkələr sənaye texnologiyalarını idxal yoluyla qlobal iqtisadiyyata inteqrasiya oluna bilirdisə, süni intellekt dövründə bu model əvvəlki kimi işləməyə bilər. Texnologiyaya çıxışın məhdudlaşdırılması, məlumat resurslarının nəzarətdə saxlanması və yüksək məhsuldarlıqlı hesablama sistemlərinin siyasi alətə çevrilməsi inkişaf etməkdə olan ölkələrin rəqabət imkanlarını zəiflədə bilər. Nəticədə dünya yalnız iqtisadi yox, texnoloji baxımdan da yeni bərabərsizlik mərhələsinə keçə bilər.

Azərbaycan üçün də bu proseslər strateji əhəmiyyət daşıyır. Rəqəmsal transformasiya, elektron hökumət, kibertəhlükəsizlik, ağıllı şəhər konsepsiyası və innovasiya iqtisadiyyatının inkişafı artıq dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Süni intellektin dövlət idarəçiliyinə, iqtisadiyyata və ictimai xidmətlərə inteqrasiyası ölkənin rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, milli məlumatların qorunması, rəqəmsal suverenlik, kritik infrastrukturun kibermüdafiəsi və yerli texnoloji potensialın gücləndirilməsi də eyni dərəcədə vacib məsələlərə çevrilir.

BMT, G7, G20, OECD və digər beynəlxalq platformalarda süni intellektin təhlükəsiz inkişafı ilə bağlı müzakirələrin intensivləşməsi təsadüfi deyil. Dövlətlər artıq anlayır ki, bu texnologiyanın inkişafını yalnız milli qanunvericiliklə tənzimləmək mümkün olmayacaq. Süni intellekt sərhəd tanımır. Bir ölkədə hazırlanmış alqoritm saniyələr sonra bütün dünyada istifadə oluna bilir. Bu səbəbdən gələcəyin əsas çağırışı qlobal texnoloji idarəetmə modelinin formalaşdırılması olacaq. Əks halda, dövlətlər arasında texnoloji rəqabət beynəlxalq hüququn imkanlarını üstələyəcək.

Tarix göstərir ki, böyük dövlətlər arasında rəqabət yalnız siyasi iradə və beynəlxalq əməkdaşlıq sayəsində idarə oluna bilir. Süni intellekt sahəsində də ortaq hüquqi prinsiplər, etik standartlar və təhlükəsizlik mexanizmləri formalaşdırılmasa, bu texnologiya bəşəriyyətin inkişafına xidmət edən vasitədən qlobal qarşıdurmanın əsas elementinə çevrilə bilər. Burada təhlükə yalnız iqtisadi üstünlüyün itirilməsi deyil; təhlükə ondan ibarətdir ki, gələcəkdə müharibələr canlı əsgərlərlə yox, avtonom sistemlərlə, informasiya manipulyasiyası ilə və süni intellekt tərəfindən idarə olunan qərar mexanizmləri vasitəsilə aparıla bilər.

Bu gün dünya tarixi seçim qarşısındadır. Süni intellekt ya bəşəriyyətin rifahını, elmi tərəqqini və davamlı inkişafı sürətləndirəcək, ya da dövlətlər arasında yeni “rəqəmsal dəmir pərdə” yaradacaq. ABŞ və Çin arasında gedən texnoloji rəqabətin nəticəsi yalnız iki dövlətin taleyini müəyyən etməyəcək. Bu mübarizə XXI əsrin beynəlxalq münasibətlər sistemini, iqtisadi güc balansını və qlobal təhlükəsizlik arxitekturasını formalaşdıracaq. Dönə-dönə vurğuladığımız kimi, narahatlıq doğuran ən mühüm məqam isə budur ki, texnologiya görünməmiş sürətlə irəliləsə də, onu idarə edəcək beynəlxalq hüquq və siyasi razılaşmalar bu sürətlə ayaqlaşmır. Tarix isə dəfələrlə sübuta yetirib ki, hüququn texnologiyadan geri qalması bəşəriyyət üçün çox ağır sınaqlarla nəticələnir.



***Kəramət QƏNBƏROV***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Dünya bazarında taxılın qiyməti artacaq



İran ilə ABŞ və Ukrayna ilə Rusiya arasında davam edən müharibələr dünya iqtisadiyyatında kifayət qədər böyük problemlər yaradıb.

Yaxın Şərqdəki münaqişə enerji bazarındakı qeyri-sabitliyə səbəb olubsa, Ukraynada davam edən müharibə isə dünya bazarında taxılın qiymətinə mənfi təsir göstərib.

AZƏRTAC xəbər verir ki, Rusiya və Ukraynanın qarşılıqlı nəqliyyat infrastrukturlarına vurduqları zərbələr ilk növbədə taxıl əkini sahələrini azaldıb.

Digər tərəfdən isə Qara dəniz vasitəsilə taxıldaşıyan yük gəmiləri də pilotsuz uçan aparatları (PUA) ilə vurulur ki, bu da bazarda taxıl qıtlığı yaradıb. Bu günə kimi Rusiyanın 200 yük gəmisi Ukrayna PUA-ları tərəfindən vurularaq sıradan çıxarılıb. Bunun nəticəsidir ki, dünya bazarında taxılın 1 tonunun qiyməti 370 dollara kimi artıb.

Belçikanın “EUalive.net” nəşri yazır ki, Azov sahilindəki Taman limanı raket zərbələri ilə dağıdıldığı üçün Rusiya taxılın daşınması üçün alternativ yollar axtarır. Bu, nəqliyyat xərclərinin artmasına səbəb olacaq. Bu səbəbdən də dünya bazarında taxılın 1 tonunun qiyməti 400 dollara kimi artacaq.

Bazardakı taxıl qıtlığı ilk növbədə taxıl idxal edən Yaxın Şərq və Afrika ölkələrinə təsir göstərəcək. Yaxın Şərq dövlətləri baha da olsa, taxıl almaq imkanına malikdir. Lakin Afrika ölkələrini yaxın illərdə böhran bürüyəcək. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Ukraynanın taxıl əkilən ərazilərinin bir hissəsi işğal altındadır, digər hissəsində isə hərbi əməliyyatlar davam edir. Rusiyada isə taxıl biçini başlasa da, fermerlər problemlə üzləşiblər. Ukraynanın Rusiyanın 30-dan çox neftayırma zavodunu PUA ilə sıradan çıxarması ölkədə yanacaq qıtlığı yaradıb ki, bu da taxıl biçinini ləngidir və məhsul tələf olur.

Türkiyə, Misir, İran, Yaxın Şərq və Şimali Afrika ölkələri ənənəvi olaraq Rusiya və Ukrayna taxılının idxalçılarıdır. Müharibənin nəqliyyat yollarında yaratdığı maneələr bu dövlətlərdə bahalaşmanın olacağını deməyə əsas verir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**







## Azərbaycan Hərbi Dəniz Qüvvələrinin 107 illik şərəf yolu

# Dövlətin strateji güclərindən biri...

Dövlətlərin müdafiə sistemində hərbi dəniz qüvvələri strateji əhəmiyyət daşıyan əsas güc komponentlərindən biri hesab olunur. Sevindirici haldır ki, Azərbaycan da bu istiqamətdə güclü potensiala malikdir. Milli təhlükəsizlik sistemimizin mühüm dayaqlarından olan hərbi donanma ölkəmizin dəniz sərhədlərinin etibarlı mühafizəsini təmin edir. Peşəkar hərbi dənizçilərimiz isə suverenliyimizə yönələ biləcək istənilən təhdidə qarşı operativ və qətiyyətli cavab vermək iqtidarındadır.

### 1919-cu ildən bəri...

Azərbaycan Hərbi Dəniz Donanmasına “Qars”, “Ərdahan” qayıqları, “Astrabad”, “Göytəpə” poçt gəmiləri, “Araz” hidroqrafik gəmisi və “Bayıl” liman daşıyıcı gəmisi daxil idi. Azərbaycanın Hərbi Dəniz Qüvvələri 1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tərk etdikdən sonra formalaşmağa başlayıb. Xatırladaq ki, 1919-cu ilə qədər Xəzər dənizinin qərb sahillərində müdafiəni ingilis hərbi gəmiləri təmin edirdi. Xəzər hərbi donanmasının gəmiləri isə Bakı azad olunarkən Port-Petrovsk limanına qaçırılıb və yalnız 1918-ci il noyabr ayında ingilislər Bakıya gəldikdən sonra geri qaytarılıb.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə əlaqədar güclü hərbi donanmanın yaradılması mümkün olmadı - donanma Sovet Azərbaycanının Qırmızı Donanması adlandırılmış, həmin ilin yayında isə Xəzər Dəniz Qüvvələrinin tərkibinə daxil edilmişdi...

### Müstəqilliyin ilk illərində...

1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası Parlamentinin qəbul etdiyi “Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında” Qanuna əsasən Silahlı Qüvvələrin tərkib hissəsi kimi Hərbi Dəniz Qüvvələrinin yaranmasının hüquqi bazası müəyyən olunub. 1992-ci il iyunun 26-da “Bakılı” keşikçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırılıb. 1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olunub. Qeyd etmək lazımdır ki, müstəqillikdən sonra Azərbaycana ən böyük dəstək verən ölkələrdən biri qardaş Türkiyə olub. 15 sentyabr 2010-cu ildə yaradılan “Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası” ilə 16 avqust 2010-cu il tarixli “Strateji Əməkdaşlıq və Qarşılıqlı Yardım Sazişi” Türkiyə ilə Azərbaycan arasında münasibətləri yüksək səviyyəyə çatdırıb. Bu razılaşmalardan sonra iki ölkə arasında birgə təlimlərin artdığının şahidi oluruq. Son zamanlar Azərbaycan və Türkiyə Hərbi Dəniz Qüvvələri arasında əlaqələr daha da artırılıb. Xatırlatmaq lazımdır ki, Türkiyə və Azərbaycan Hərbi Dəniz Qüvvələri arasındakı əlaqələrin tarixi 2000-ci illərdən başlayıb.

Azərbaycan milli hərbi dəniz qüvvələrinin yeni tarixi isə 1992-ci ildə keçmiş SSRİ Hərbi Dəniz Donanmasının Qırmızı Bayraqlı Xəzər Donanmasına məxsus gəmilərin Azərbaycana verilməsi ilə başlayıb. Bu sahədə peşəkar milli kadrların müstəqil Azərbaycana gətirilməsində, yeni kadrlar yetişdirilməsində, donanmanın maddi-texniki bazasının möhkəmləndirilməsində Ümummilli Lider Heydər Əliyevin böyük xidmətləri olub.

Yeri gəlmişkən, avqustun 5-i Azərbaycan Hərbi Dəniz Donanması Günüdür. Bu barədə Heydər Əliyev 1996-cı ildə fərman imzalayıb.

Azərbaycanın hərbi donanması 2000-ci ildən geniş hərbi təlimlərdə iştirak edir. Bu təlimlər hərbçilərimizin peşəkarlığını artırmaqla yanaşı, donanmanın gücünü bütün dünyaya nümayiş etdirir. Azərbaycanın hərbi dəniz donanması hazırda ən müasir hərbi texnika ilə təchiz olunub.



Dövlət başçısının rəhbərliyi altında Azərbaycan Ordusunun, o cümlədən Hərbi Dəniz Qüvvələrinin daha da gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, gündən-günə qüdrətlənən Azərbaycan Ordusu və onun Hərbi Dəniz Qüvvələri ölkəmizə qarşı yönələn hər hansı bir həmləni dəf etməyə qadirdir.

### Vətən müharibəsində...

Hərbi Dəniz Qüvvələrimizin gücünə İkinci Qarabağ müharibəsində də şahid olduq. Vətən müharibəsi dövründə Dəniz Xüsusi Təyinatlılarının qəhrəmanlıqlarına bütün dünya şahidlik etdi. Belə ki, 27 sentyabr 2020-ci ildə əks-hücum əməliyyatı ilə başlayan döyüşlər zamanı Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlıları döyüşlərdə fədakarlıq, əzmkarlıq və qəhrəmanlıq göstərdilər. Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı rayonlarının və Şuşa şəhərinin azad olunmasında fəal iştirak etdilər. 2020-ci il oktyabrın 25-də ölkə başçısına Qubadlı rayonunun işğaldan azad olunması barədə videogörüntü ilə məruzə edərək xalqı qürurlandıran məhz Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlılarının komandiri idi...

*Yeganə BAYRAMOVA*

# Yol təhlükəsizliyinin üçrəngli keşikçisi

## İşıqforlar sadəcə siqnal deyil, həyat zəmanətidir...

İlk baxışda sadə siqnal sistemi kimi görünən işıqforlar əslində minlərlə insanın həyatını qoruyan, nəqliyyat axınının nizamlı təşkilinə xidmət edən vacib infrastrukturlardan biridir. Müasir şəhər həyatını işıqforsuz təsəvvür etmək demək olar ki, mümkün deyil. Avtomobillərin, ictimai nəqliyyatın və piyadaların eyni məkanı paylaşdığı küçələrdə hərəkətin təhlükəsiz şəkildə idarə olunması məhz işıqforların düzgün fəaliyyəti sayəsində mümkün olur.

İşıqforlar yalnız sürücülər üçün deyil, piyadalar üçün də mühüm təhlükəsizlik vasitəsidir. Xüsusilə, məktəblərin, xəstəxanaların, parkların və insanların sıx olduğu küçələrin yaxınlığında quraşdırılan piyada işıqforları uşaqların, yaşlı insanların və fiziki məhdudiyyətli şəxslərin yolu təhlükəsiz keçməsinə kömək edir. Bununla yanaşı, işıqfor siqnallarına əməl etmək hər bir vətəndaşın şəxsi məsuliyyəti hesab olunur və yol hərəkəti mədəniyyətinin vacib göstəricilərindən biridir.

### İlk işıqforlar 2 rəng idi

Yeri gəlmişkən, avqustun 5-i Beynəlxalq İşıqfor Günüdür. Bu əlamətdar günün tarixə düşməsindən artıq 112 il ötür. Həmin gün 1914-cü ildə ABŞ-ın Klivlend şəhərində ilk elektrik işıqfor quraşdırılıb. Onun da 2 - qırmızı və yaşıl işıq rəngli işıqları olub. Sarı rəngi isə polisin xəbərdaredici fiti əvəz edirdi.

İllər keçdikcə 2 rəngi 3 rəng əvəz etdi. Zaman keçdikcə işıqforlar inkişaf edərək daha mürəkkəb, rahat və ağıllı olur. Bu gün təkcə avtomobillər üçün deyil, həm də piyadalar, tramvaylar, velosipedçilər və hətta atlar üçün işıqforlar var. Qırmızı siqnalda sağa dönməyə imkan verən oxlar, eləcə də səs siqnalları var ki, görmə qabiliyyəti zəif olan insanlar yolun hərəkət hissəsini təhlükəsiz keçə bilsinlər.



Ola bilsin ki, kimsə işıqforların sadəcə bir məhdudiyyət olduğunu fikirləşir. Amma düşünsək ki, onlar günümüzdə nə qədər insanın həyatını xilas edib, onda yanlarından təşəkkür etməmiş keçmərik. Beynəlxalq İşıqfor Günü fürsət bilib mövzunu qabartmaqda məqsədimiz son zamanlar yol hərəkəti qaydalarına əməl edilməməsi və nəticədə nəqliyyat hadisələrinin artmasıdır. Etiraf edək ki, xoşagəlməz hadisələrin yaşanmasında əsas səbəblərdən biri sürücülərin və piyadaların tələskənliyidir.

Bu gün bütün dünya ölkələrindəki yol polisi əməkdaşlarının əsas diqqət etdiyi yer piyada keçidləridir. Ölkəmizdə nizamlanan və nizamlanmayan piyada keçidləri var. Nizamlanan piyada keçidlərində hərəkətin nizamlanması işıqfor vasitəsilə həyata keçirilir. Piyadalar bəzən işıqfora fikir vermədən, piyada keçidi olmayan yerlərdən və etinasızca mobil telefon və yaxud qulaqcıqlarla yolu keçmək istəyərkən yol-nəqliyyat hadisələri qeydə alınır.

Təəssüf ki, bunun üçün maarifləndirici tədbirlər görülsə də, qaydalara əməl etməyən, diqqətsiz və məsuliyyətsiz sürücülər, həmçinin piyadalar yenə var. Hər bir ölkədə yol hərəkəti qaydalarının pozulmasına görə, istər piyada, istərsə də sürücülər üçün müvafiq məbləğdə cərimələr tətbiq olunur. Lakin məqsəd piyada və sürücüləri cərimə ilə qorxutmaq yox, yol-nəqliyyat hadisələrinin qarşısını almaqdır.

### 3 rəngin tələbi...

İşıqforun yaşıl işığı yanan zaman digər istiqamətdən gələn nəqliyyat vasitələrinin, həmçinin piyadaların hərəkətini başa çatdırmasına şərait yaradılması öz əksini tapıb. Ancaq o demək deyil ki, yaşıl işıq yandı, sürücü dərhal hərəkətə başlaya bilər. Bəzən sürücülər işıqforun yaşıl və yaxud qırmızı işığının sönməsinə 1-2 saniyə qalmış sürəti azaltmaq yerinə, bir az da artırırlar ki, yolayrıcını tez keçsinlər. Bütün bu tələskənliklər isə bədbəxt hadisələrin baş verməsinə gətirib çıxarır.

Adətən piyadaların küçə və yollarda hərəkətinə qadağa qoymaq mümkün olmadığı üçün bütün məsuliyyət sürücülərin üzərinə düşür. Bunun üçün də sürücülər daha təmkinli, piyadalarla münasibətdə daha diqqətli olmalı, qarşısına qəfil çıxan piyada ilə məsafəsini nizamlamağı bacarmalıdır.

Lakin bu, piyadaların məsuliyyətinin az olması mənasına gəlməməlidir. Yol hərəkəti qaydalarının tənzimlənməsində sürücülər qədər, ən az piyadaların da diqqəti və məsuliyyəti vacibdir.

### Ağıllı işıqforlar

Texnologiyanın inkişafı işıqfor sistemlərini də müasir tələblərə uyğunlaşdırır. Bu gün bir çox şəhərlərdə nəqliyyatın sıxlığına uyğun işləyən ağıllı işıqfor sistemləri tətbiq edilir, beləliklə tıxacların azalmasına, hərəkətin daha çevik idarə olunmasına və vaxt itkisinin minimuma endirilməsinə nail olunur. Müasir həllər həm də təcili tibbi yardım, yanğınsöndürmə və digər operativ xidmət avtomobillərinin hərəkətini sürətləndirməyə imkan yaradır.

Yol hərəkətinin təhlükəsizliyi yalnız texniki vasitələrdən deyil, hər bir sürücü və piyadanın məsuliyyətli davranışından asılıdır. İşıqforun bir neçə saniyəlik qırmızı işığına riayət etmək bəzən bir insanın həyatını xilas edir, yaşıl işığı gözləmək isə təkcə qanuna deyil, insan həyatına göstərilən hörmətin ifadəsinə çevrilir. Bu baxımdan işıqforlar sadəcə yol nişanı deyil, təhlükəsiz, nizamlı və məsuliyyətli cəmiyyətin ən vacib simvollarından biri hesab olunur.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4494
Sifariş: 988
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova